www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 dekabr 2016-cı il Çərşənbə axşamı № 277 (6598) Qiymətı 60 qəpik

**Xəbər**

## Bakıda insanlıq rəzaləti; yeni doğulmuş uşağı zibilliyə atdılar

yazısı səh.14-də

**Gündəm**

### İşğalçı ölkə başçısını Talışa gətirən səbəblər



Vasitəçilər Serj Sərkisyanın bu həyasızlığına da biganə qaldılar; ordumuzun düşmən ölkənin rəhbərini vurmağa tam haqqı var idi

yazısı səh.9-da

### İrandan Azərbaycana anti-İsrail çağırışının pərdəarxası

yazısı səh.12-də

### 4 intihara “şahidlik edən” bina....

yazısı səh.13-də

### OPEK-in razılığı neftin qiymətini yüksəldəcəkmi...

yazısı səh.4-də

### Tam üzən məzənnəyə keçid nə vəd edir?

yazısı səh.13-də

### Səfirlərin rəsmi qəbula milli geyimdə getməsi doğrudurmu...

yazısı səh.6-da

### “Ərəb baharı”nın silahı - terror

yazısı səh.7-də

### Neftçalada atasını öldürən gəncin daha bir qətl törətdiyi üzə çıxdı

yazısı səh.2-də

### Terrora görə Türkiyəyə gedən turistlərin sayı azalıb

yazısı səh.7-də

### Tarif Şurası su ilə bağlı qərarına izahat verdi: “Artım olmayıb”

yazısı səh.15-də

### Hava şəraiti dəyişəcək; yenə qar, yağış gəlir...

yazısı səh.14-də

### Türkiyədə terroru dəstəkləyən 235 nəfər həbs edildi

yazısı səh.2-də

## Generaldan sensasion gündəm açıqlamaları

# MƏDƏT QULİYEV MAHMUDOVUN MEDİA ÇETESİNİ NECƏ ÇÖKDÜRDÜ - TƏFƏRRÜAT

DTX sədri reket “jurnalist”lərin həbsinin gizlinlərini açıqlayıb; MTN-in nəzarətindəki mətbuat bəzi vəzifəli şəxsləri övladlarının video-çəkilişləri ilə şantaj edirmiş; M.Quliyev həmçinin “qara bazar” və antiterror əməliyyatlarından da danışıb



yazısı səh.5-də

## Ankaradan Kremlə Azərbaycan ismarışı - düyünü açmaq zamanı...

Türkiyə baş nazirinin Moskva səfərində “Qarabağ izi”, bu - işğalçıya da mesajdır; Ermənistanla ortaq ordu ilə bağlı Rusiya rəsmisindən ilginc etiraf; Ankara-Moskva anlaşmalarına erməni “kolu” o vaxtadək əngəl olacaq ki...

yazısı səh.8-də



*Bəxtiyar Sadıqov:*

### “Avropada kiminsə çaldığı havaya oynamırıq”

yazısı səh.6-da



*Səbuhi Rəhimli:*

### “Siyasətdə yanlış proqnozlar olduğu kimi, astrologiyada da uydurmalar var”

yazısı səh.10-da



İqor Aşurbəyli

### “Rusiya hərbi raketlərinin azərbaycanlı müəllifi”

yazısı səh.11-də



# “Fransanın Qarabağ nizamlanmasında fəal iştirak edəcəyinə ümidvaram”

**Azərbaycan prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan yeni həmsədri Stefan Viskontini qəbul edib. APA-nın məlumatına görə, ATƏT-in Minsk qrupunun yeni həmsədri Stefan Viskonti 15 il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayaraq ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin və əldə olunan nailiyyətlərin onda böyük təəssürat yaratdığını məmnunluqla qeyd edib.**

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Fransanın Minsk qrupunun həmsədri kimi bundan sonra da fəal iştirak edəcəyinə ümidvar olduğunu bildirib. Münaqişənin artıq uzun illərdir ki, davam etdiyini vurğulayan dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə öz həllini tapmasında ölkəmizin maraqlı olduğunu bir daha vurğulayıb.

# QAT üzvləri yenidən polisə çağırıldı

**QAT üzvləri yenidən polisə çağırılıb. Musavat.com xəbər verir ki, QAT sədri Akif Nağını və erməni müğənni Filip Kirkorovun Bakıda konsert verməsinə qarşı etiraz aksiyası keçirmiş digər QAT üzvlərini dekabrın 13-də, saat 10 üçün Səbael rayon Polis İdarəsinin 8-ci polis bölməsinə çağırıblar. QAT sədri onları nə üçün dəvət etdiklərini bilmədiyini deyib:**

“Dəvətin məqsədinin nə olduğu məlum deyil. Dekabrın 10-da axşam QAT üzvləri həmin bölməyə gətirilib, gecədən keçənə qədər onları orada saxlayıb, izahat alıb, sonra sərbəst buraxıblar. Bizi həbs eləmək üçün, ya başqa məqsədlə çağırıblar bilmirik. Biz bu yolda döyülməyə, tutulmağa, hər şeyə hazırıq və bizi yolumuzdan heç nə döndərə bilməz. Nəyin bahasına olursa olsun, ermənilərin məkrli siyasətinin həyata keçirilməsinə, ermənilərlə qardaşlaşma siyasətinə, xəyanət yoluna imkan verməyəcəyik. Nə qədər ki, torpaqlarımız işğal altındadır, ”xalq diplomatiyası" oyunlarına, sosoların, filiplərin, avetyanların səfərlərinə imkan verməyəcəyik. Bizi tutsunlar, öldürsünlər, işimizi digər QAT-çılar, vətənpərvərlər davam etdirəcəklər".

# Son bahalaşma evləri ucuzlaşdıracaqmı...

## Ekspertlər fərqli fikirdədir, bazarda hələ ki durğunluqdur...

**Tarif Şurasının bahalaşma qərarının evlərin satışına və kirayəsinə mənfi təsir edəcəyi bildirilir. Bəzi ekspertlər evlərin satışının və kirayəsinin ucuzlaşacağı qənaətindədirlər. Əksini düşünən ekspertlər də az deyil.**

**Ekspert Rəşad Əliyev** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bahalaşmanın bazara hələ ki ciddi təsiri yoxdur: “Bazardan xəbərdar olan bir qrup ekspert hesab edir ki, son bahalaşma qiymətlərə mənfi təsir edəcək, daha çox həyət evlərinə təsir edəcək. Əksini düşünən ekspertlər də var. Mən hesab edirəm ki, bunu müəyyən etmək çox çətin olacaq. Çünki əmlak bazarında vəziyyətin pis olması hər kəsə məlumdur. Məzənnəyə görə ev alqı-satqılarının bir hissəsi təxirə salınıb. Bazarda hazırda vəziyyət ürəkaçan deyıl. Dollar ifadəsində onsuz da qiymət azalmasını müşahidə edirik. Ona görə son bahalaşmanın bazara təsiri haqqında nəsə demək çox çətindir. Təsiri olsa da, çox məhdud olacaq”.

**Ekspert Qubad İbadoğlu** isə bildirib ki, yeni tikililərdə sahəsi geniş olan mənzillərin satış və kirayə qiymətləri ucuzlaşacaq: “Tarif Şurasının son qərarı ilə əhalı qrup üzrə elektrik enerjisinin və qazın tariflərinin differensiallaşdırılması və minimum ehtiyacdan yuxarı olan istehlaka görə qiymətlərin kəskin artırılması mənzil və mülk bazarına da təsirsiz ötüşməyəcək. Belə ki, yeni tikililərdə və həyət evlərində geniş sahəli mənzillərin satış və kirayə qiymətləri daha ucuzlaşacaq. Buna müvafiq olaraq mərkəzləşdirilmiş istilik sisteminə malik olan köhnə tikili daş binalarda ekonom klass mənzillərin satış və kirayə qiymətlərində bahalaşma müşahidə olunacaq. Komunal tariflər həmçinin biznes mərkəzlərdə kirayə haqlarına artırıcı təsir göstərəcək. Mənzil bazarında baş verən qiymət dəyişiklikləri torpaq və tikinti materialları bazarında tələbatın azalmasına gətirib çıxaracaq. Bir sözlə, Tarif Şurasının son qərarı tikinti sektorunda tənəzzülü daha da dərinləşdirəcək. Məlumat üçün qeyd edim ki, 2016-cı ilin yanvar-oktyabr aylarında tikinti sektorunda istehsal keçən ilin eyni dövrü ilə müqayisədə 27,4 faiz azalıb”.

❑ RÖYA

# Azərbaycanın KİV rəhbərləri Ankarada görüşlər keçirir

**Azərbaycandan Türkiyənin paytaxtı Ankara şəhərinə proqram səfəri ilə gedən azərbaycanlı baş redaktorlar dekabrın 12-də görüşlərə başlayıblar.**

Musavat.com-un xəbərinə görə, nümayəndə heyətinin tərkibində KİV DF rəhbərliyi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev, o cümlədən Azərbaycanda fəaliyyət göstərən populyar media qurumlarının - qəzet və saytların rəhbərləri var.

Azərbaycanlı jurnalistlər proqram səfərinə mərhum prezident Heydər Əliyevin vəfat günü ilə bağlı olaraq onun Ankaradakı abidəsini və Əliyevin adına olan parkı ziyarətlə başlayıblar, daha sonra isə Türkiyə Cümhuriyyətinin Basın, Yayın, İnformasiya Genəl Müdürlüyündə görüş keçiriblər. Genəl Müdürlüyün rəhbəri Ahmet Akarca qonaqları salamlayıb, ondan sonra görüş qarşılıqlı fikir mübadiləsi şəraitində davam edib. KİV DF-nin icraçı direktoru Vüqar Səfərli Azərbaycan media rəhbərləri adından Türkiyə xalqına başsağlığı verib və hər kəsi şəhidlərin anısına 1 dəqiqəlik sayğı duruşuna dəvət edib.





Daha sonra qəzet redaktorları Türk İşbirliyi və Koordinasya Agentliyinə (TİKA) qurum rəhbərliyi ilə görüşə yollanıblar və TİKA başqanı ilə görüşüblər. TİKA başqanı Serdar Çamla görüşdə qonaqlara bu qurumun həyata keçirtdiyi nəhəng layihələrdən söhbət açılıb.

Azərbaycanlı jurnalistlərin görüşləri davam edir.

Səfəri KİV DF BYİGM ilə bir yerdə təşkil edib.

# “Azərbaycan münaqişənin danışıqlar yolu ilə həlli üzrə səylərini davam etdirəcək”

**Xarici işlər naziri Elmar Məmmədyarov Fransanın ATƏT-in Minsk qrupundakı həmsədri Stefan Viskonti ilə görüşüb.**

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, görüşdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinin intensivləşdirilməsi və mövcud vəziyyətin dəyişdirilməsi barədə fikir mübadiləsi aparılıb.

E.Məmmədyarov Azərbaycanın Minsk qrupunun həmsədrləri ilə birlikdə münaqişənin substantiv danışıqlar yolu ilə həlli üzrə səylərini davam etdirəcəyini bildirib.

# Türkiyədə terroru dəstəkləyən 235 nəfər həbs edildi

**İstanbulun Beşiktaş rayonunda baş verən terror hücumundan sonra sosial şəbəkələrdə terroru dəstəkləyən 235 nəfər həbs edilib.**

Axar.az xəbər verir ki, bu barədə Türkiyə Daxili İşlər Nazirliyi məlumat yayıb.

PKK/KCK əməliyyatları ölkənin 11 vilayətində aparılıb.

Saxlanılanlar “terror təşkilatını müdafiə etmək”, “sosial şəbəkələrdə terroru təbliğ etmək” maddələri ilə ittiham olunur.

Xatırladaq ki, bir qrup separatçı Feysbuk və Tvitterdə “Çox gözəl bir gün”, “Polislərə ölüm”, “Bu gün bir partlayış gözləyirdim” və s. ifadələr yazıblar.

# MTN-də döyülən qadın həbsxanada öldü

**Azərbaycanda daha bir məhkum ölüb. Ölüm faktı Penitensiar Xidmətin Müalicə Müəssisəsində qeydə alınıb. Orada müalicə alan, 49 yaşlı Ceyran Rüstəmova vəfat edib. Qeyd edək ki, C.Rüstəmova sahibkarlıq fəaliyyəti ilə məşğul olub. O, 2014-cü ildə dələduzluqda təqsirləndirilərək həbs edilib. Məlumata görə, C.Rüstəmova həbs edilən zaman onkoloji xəstə olub.**

Onu da qeyd edək ki, C.Rüstəmova 2015-ci ildə Milli Təhlükəsizlik Nazirliyi ləğv edildikdən sonra “Yeni Müsavat”a məktubla müraciət edərək MTN əməkdaşları tərəfindən şantaj edildiyini bildirib.

MTN əməkdaşları tərəfindən təhdid olunan C.Rüstəmova onlara 100 min manat pul ödədiyini açıqlayıb.

Həmin məktub qəzetin 26 aprel 2016-cı il tarixli sayında “MTN-nin tutduğu qadın türmədən dəhşət dolu məktub yazdı” sərlövhəsi altında təqdim edilmişdi.

**Həmin məktubdan sitat:**

“Bundan sonra məni MTN-in binasına apardılar. Orada MTN-in əməkdaşları dedilər ki, onlara Səkinə və onun ailə üzvlərinin bildirdiyinə görə, mən qeyri-qanuni sahibkarlıqla məşğul oluram. Mən isə dedim ki, yalan deyirlər. Bu söz ağzımdan çıxmamış Əli adlı şəxs qolumun üstünə vuraraq hədə-qorxu gəlməyə başladı”.

Bu müraciətdən xeyli əvvəl, 2015-ci ilin oktyabrında C.Rüstəmovanın bacısı Kəmalə Rüstəmova dövlət qurumlarına şikayətlər yazaraq bacısının ağır onkoloji xəstəliklərlə üz-üzə qaldığını, Türkiyədə əməliyyat edildiyini və kimyaterapiya ilə həyatda qaldığını bildirmişdi. Qeyd etmişdi ki, həbsxana şəraitində bacının müalicəsi effektiv deyil və onun ev dustaqlığına buraxılmasını istəmişdi. Təəssüf ki, bu baş vermədi və qadın həbsxana divarları arasında həyatını başa vurdu.

❑ E.MƏMMƏDƏLİYEV



# Neftçalada atasını öldürən şəxsin daha bir qətl törətdiyi üzə çıxdı

**Neftçalada atasını öldürərək meyitini yandırıb külünü Kür çayına atan oğulun daha bir ağır cinayətinin üstü açılıb.**

APA-nın xəbərinə görə, 2014-cü ilin fevralında Neftçala rayonu Yuxarı Qareymanlı kənd sakini, taksi sürücüsü kimi fəaliyyət göstərən 1964-cü il təvəllüdlü Rüstəmov Kamal Ədalət oğlunun itkin düşməsi barədə polisə məlumat daxil olub. Hadisədən bir gün sonra Kamal Rüstəmovun idarə etdiyi “VAZ 21011" markalı 47 ** 421 dövlət nömrə nişanlı avtomobil yanmış halda rayonun Pirəbbə kəndinin ərazisində aşkar edilib. Avtomobilin yanında onun ayaqqabısı tapılıb. Lakin yanmış avtomobilə polis tərəfindən baxış keçirilərkən hər hansı cəsəd aşkar edilməyib.

Həyata keçirilən tədbirlər nəticəsində həmin qətlin rayon sakini, 1992-ci il təvəllüdlü Heybətov Emil Aydın oğlu tərəfindən törədildiyi müəyyən edilib. E.Heybətov K.Rüstəmovu öldürdükdən sonra onun avtomobilini yandırıb, meyitini Bakı şəhərinə gətirib və Balaxanı qəsəbəsində kirayədə qaldığı evin həyətində basdırıb.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin əməkdaşlarının iştirakı ilə bu gün meyit basdırıldığı yerdən çıxarılıb.

Qeyd edək ki, hadisəni törətməkdə təqsirli bilinən E.Heybətov bir neçə gün əvvəl anası ilə birgə atasının qətlində şübhəli bilinərək tutulub. Araşdırmalar zamanı müəyyən edilib ki, o və anası Tükəzban Heybətova 2013-cü ildə atası, 1961-ci il təvəllüdlü Heybətov Aydın Dəmir oğlunu qətlə yetirərək meyitini yandırıb və daha sonra qalıqlarını Kür çayına atıblar. Qətli törətməkdə şübhəli bilinən 1962-ci il təvəllüdlü Heybətova Tükəzban Habil qızı və oğlu, 1992-ci il təvəllüdlü Heybətov Emil Aydın oğlu polis tərəfindən saxlanılıb.

**Ölkədə əhalinin qiymət artımlarından narazılığının artdığı bir dövrdə bir sıra iqtidar deputatları çıxışlarında xalqda narazılığı daha da artıran ifadələrə yol verirlər. Məsələn, biri deyir işdən sonra fəhləlik edin, o biri "ayağınızı yorğanınza görə uzadın" söyləyir, digəri deyir ki, hər il bir paltar almayın, hər toya getməyin, bir başqası "az yeyin, forma saxlayın" kimi fikirlər ifadə edirlər. Bunlar isə əhalidə qıcıq yaradır.**

# İqtidara təhlükə yaradan deputatlar

## Düşünülməmiş açıqlamalar verən MM üzvləri əhalidə hakimiyyətə qarşı qıcıq yaradırlar

Faktiki olaraq savadsız, guya iqtidara xoş gəlməsi üçün dilə gətirilən bu ifadələrlə hakimiyyətə zərbə vururlar.

Müxalifət düşərgəsinin bəzi təmsilçiləri bildirirlər ki, iqtidara əslində daha çox təhlükə məhz bu cür ifadələrinə diqqət edə bilməyən deputatlardan gəlir.

**AMİP katibi Elşən Mustafayev** bu barədə açıqlamasında bildirdi ki, neftin qiyməti düşəndən sonra yaranan iqtisadi böhran və maliyyə problemləri, xüsusən də Tarif Şurasının son qərarları göstərdi ki, hökumətdə və parlamentdə yarıtmaz insanlar kifayət qədərdir. Məhz belə məmurlar və deputatlar yanlış addımları, çıxışları ilə narazılığı körükləyirlər: "Artıq sübuta yetib ki, parlament üzvlərinin bir çoxu deputat mandatı daşımağa layiq deyillər. Hələ bu günə kimi heç bir qurum tərəfindən bu çətinlikdən çıxmaq üçün nəinki real iqtisadi təkliflər paketi ortaya qoyulub, heç vəziyyətə uyğun adi işlər belə görülməyib. Azərbaycanın bugünkü duruma düşməsinin birinci günahkarları məhz elə bu cür deputatlar və məmurlardır. Çünki son 11-12 ildə onlar ölkənin rifahının artırılması, post-neft dövrünə hazırlanması üçün çalışmayıblar. Əvəzində müxtəlif yollarla şəxsi rifahlarını yüksəltməklə məşğul olublar. Hərəsi ayrı ayrılıqda bir oliqarxa çevriliblər. Hansı ki, sərvətlərinin dəyərləri ölkənin problemlərdən çıxarmağa bəs edən qədərdir. Onların insanları aşağılayacaq şəkildə verdiyi təkliflər intellektlərinin, savadlarının və iş görmə qabiliyyətlərinin göstəricisidir".



**Ümid Partiyasının sədrinin müavini Tamilla Qulami** isə bildirdi ki, bir sıra deputatlar və məmurlar var ki, gerçəkdən də həm xalq, həm də bu hakimiyyətin özü üçün təhlükədirlər. Belə deputatlar və məmurlar hakimiyyətin də ciddi probleminə çevrilməkdədirlər: "Hökumətə normal təkliflər vermək, hökumətdən yaranmış vəziyyətin səbəbini tələb etmək, əslində bununla həm də hakimiyyətə də kömək etmək əvəzinə xalqda narazılığı artıran açıqlamalar verirlər.

Həqiqətən də son zamanlar ölkədə baş verən sosial-iqtisadi vəziyyətin ağırlaşdığı şəraitdə millət vəkillərinin, məmurların əhalinin bu sahədə məlumatlandırması əvəzinə əhalidə daha da qıcıq yaradacaq fikirlər səsləndirməsi təəssüf hissi doğurur. Bu millət vəkilləri o şəxslərdir ki, özləri dediklərinin əksinə bir həyat tərzi yaşayır, əvəzində xalqı daha çətin şəraitdə yaşamağa, onsuz da kasıb olan cəmiyyəti nədəsə qənaət etməyə çağırır. Bu isə haqlı olaraq əhalidə ciddi narahatlıq və narazılıq yaradır. Bu cür deputatların açıqlamaları bütöv müxalifət partiyalarının bılkə də aylarla hakimiyyət leyhinə apardıqları təbliğatdan daha ciddi anti-hakimiyyət ovqatı yaradır cəmiyyətdə. Bütövlükdə onsuz da çətin olan münasibətləri daha da çətinləşdirirlər. Biz hakimiyyətə antiböhran proqramı təqdim edəndə deputatlardan biriylə müzakirələr zamanı həmin deputat mənimlə mübahisə etdi. Bu cür deputatların işi-gücü sanki yersiz mübahisələr, çıxışlar etməkdir. Hakimiyyət üçün təhlükə mənbələrindən biri məhz belələridir".

❑ **E.SEYİDAĞA**

# Ənənəvi müxalifəti dirçəltmək planı

## 2015-ci ilin əvvəlində başlanan və yarımçıq kəsilən proses yenidən başladıla bilər

**Ənənəvi (real) müxalifət partiyalarının həddən artıq zəif durumda olması sirr deyil. Bunun bir tərəfdən hakimiyyətin işinə yaradığı bəlli olsa digər tərəfdən zərərinə işlədiyi də faktdır. Hakimiyyət düşərgəsində belə bir düşüncə var idi ki, real müxalifət zəiflədikcə və cəmiyyətə təsir etmək imkanını itirdikcə, onun yerini idarəedilən, hakimiyyətin birbaşa nəzarətində olan "cib müxalifəti" adlanan partiyalar dolduracaq və bu hakimiyyətə, eləcə də ölkəyə daha məqbuldur.**

MÜSAVAT




İllər keçsə də "cib müxalifəti"nin boşluğu doldura bilmədi. Artıq hakimiyyət düşərgəsində də bunun fərqindədirlər. Yayılan xəbərlər görə, hakimiyyətdə bir sıra şəxslər real müxalifət sıradan tamamilə çıxdıqca onun yerini radikal dini ekstremist təmayüllü qruplar və təşkilatların tuta biləcəyindən narahatlıq keçirirlər. Ona görə də təkliflər irəli sürülüb ki, bu təhlükəni bəri başdan önləməyin yollarından biri kimi real müxalifətin müəyyən həddə qədər dirçəlməsinə şərait yaradılsın. Bunun üçün də ilk addım kimi həmin düşərgə ilə hakimiyyət təmsilçiləri arasında dialoqa start verilməsinin ən məqbul variant olduğu təklifləri səslənib. Proses hələlik təkliflərdən o yana keçməsə də istisna deyil ki, gələn ilin ilk ayından etibarən təkliflərin real prosesə çevrilməsi istiqamətində praktiki addımlara start verilsin.

Xatırladaq ki, 2015-ci ilin əvvəllərində hakimiyyət təmsilçisi ilə ölkədəki siyasi partiyaların arasında görüşlər keçirilmişdi. Proses müsbət istiqamətdə davam edirdi. Lakin gözlənmədiyi halda danışıqlar prosesi qəfil dayandı. Məlumatlara görə, artıq həmin prosesə əngəl yaradan faktor aradan qaldırılıb.

Sözügedən görüşlərdə aktiv iştirak etmiş **AXP sədri Pənah Hüseyn** bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hakimiyyət daxilində hansısa görüş, dialoq fikri, təklifi olduğun haqda onda hər hansı məlumat yoxdur: "Mən dialoqa hazırlıq getməsini də hiss eləmirəm. Bizə hər hansı bir təklif də olmayıb. Ola bilər ki, hansısa partiyalar imitasiya xarakterli hansısa prosesə meyllənsin. Amma bütövlükdə real müxalifətin daxilində hal-hazırda bu cür qüvvələr yoxdur. Xüsusən son dövrlər hökumətin həyata keçirdiyi istər sosial, istər iqtisadi, istər siyasi sahədəki addımların ortada olduğu bir vaxtda dialoq prosesinin başlanacağını düşünmürəm. Müxalifətlə dialoq başlanacağı barədə deyilənlərin reallaşacağına inanmıram. Məncə belə bir ehtimal çox azdır. Müxalifət daxilində belə söhbətlərə etimad yoxdur. Güman edirəm haqqında söhbət gedən məsələ kimlərinsə təxəyyülünün məhsuludur".

❑ **E.SEYİDAĞA**




# Hüquq müdafiəçisi siyasi məhbusların azad ediləcəyinin anonsunu verdi

**Mehman Əliyev:** "Qərbi razı salmaq üçün belə addım ata bilərlər"

**Mirvari Qəhrəmanlı:** "İntiqam Əliyevin fikirləri hökumətə yaxşı mesajdır"

**Azərbaycan hakimiyyətinin ölkədə tüğyan edən iqtisadi böhrandan doğan narazılıqları səngitmək üçün bir sıra addımlar atacağı, o cümlədən siyasi məhbusların bir qismini azad edəcəyi ilə bağlı xəbərlər yayılıb. Ölkə iqtidarının Yeni il əfvində Qərblə münasibətləri daha da yaxşılaşdırmaq, habelə daxildə narazılıqları səngitmək üçün bir sıra məhbusları azadlığa buraxacağı deyilir.**

**Hüquqşünas İntiqam Əliyev** də bu fikirdədir. O hesab edir ki, ölkədəki ağır iqtisadi durumla bağlı rastlaşdığı çətinliklər səbəbindən bu cür rəddetmə siyasətinin arzuolunmaz nəticələrə gətirib çıxaracağını hökumət anlamamış deyil və REAL sədri İlqar Məmmədov da daxil olmaqla, siyasi məhbusların bir hissəsi çox güman ki, yaxın zamanlarda azadlığa buraxılacaqlar.

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** də belə düşünür: "Ola bilər ki, yaxın zamanlarda bir sıra siyasi məhbuslar azad olunsun. Mən iqtisadi islahatlarla bağlı "Yol Xəritəsi" ilə tanış oldum. Düzü, bunların hamısının yerinə yetiriləcəyinə inanmıram. Müəyyən dərəcədə Qərbi razı salmaq üçün belə addım ata bilərlər. Bir növ Qərbin bu "Yol xəritəsi"ni qəbul etməsi və bunun müqabilində siyasilərin azad olunması niyyəti var. Hakimiyyət üçün hazırda əsas önəm daşıyan odur ki, iqtisadi rıçaqları əlində saxlasın. Bunların özlərinin qurduqları qrafiklər var. Bu baxımdan hesab edirəm ki, siyasi məhbuslar azad oluna bilər. Deməzdim ki, yanvarda siyasi məhbusların hamısı azad olunacaq. Bunu heç görmürəm də. Hakimiyyət hər zaman belə edib, birdən-birə hamısını azad etmir, belə ənənə yoxdur. Hissə-hissə azad edirlər, sonradan onların yerini elə hissə-hissə də doldururlar. Məsələn, bizdə yüzə qədər siyasi məhbus var idi, onların təxminən 60-nı azad etdilər, sonradan Nardaran hadisələri ilə bağlı həbs edilən dindarlarla onların yerlərini doldurdular. Belə bir siyasət var. Bu baxımdan hissə-hissə siyasilərin azad olunacağını düşünürəm. İndi Yeni il gəlir, ardınca Novruz bayramı. Referendumla bağlı struktur dəyişiklikləri mart ayında gözlənilir, çünki İlham Əliyev real nəticələrin 6 aydan sonra olacağını demişdi. Bu baxımdan həmin vaxt da siyasilərdən azad edilənlər ola bilər. Yəni birdən-birə heç nə baş verməyəcək".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** İntiqam Əliyevin fikirlərinin əsaslandırılmış olduğunu qeyd etdi: "Ölkədə sosial narazılıq var və artıq pik həddə çatıb. Narazılığın bir hissəsi də siyasi məhbuslarla bağlıdır. Onların ailələrinin, eləcə də, beynəlxalq aləmin təzyiqləri var. İntiqam müəllimin fikirləri hökumətə yaxşı mesajdır. Bir növ hökumətə yaxşı yol göstərir. Siyasi məhbusların azad olunması hökumət tərəfindən balanslaşma siyasəti ola bilərdi. Bununla xarici siyasət daha da yaxşılaşar, ölkə daxilində müəyyən sakitlik yarana bilər. Amma təəssüflər olsun ki, hökumət daxilində anlama siyasəti zəifdir. İntiqam müəllimin mesajını anlayan və onu həyata keçirəcək insanlar lazımdır. Məmurlar içərisində müxtəlif qruplaşmalar var. Onların hər birinin müəyyən fikirləri var. Bu qruplaşmalar içərisində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasını istəməyənlər var. Açığı, böyük əfv də gözləmirəm. İntiqam müəllimin bu mesajı qəbul olunmalı, analiz edilməlidir. Mesaj ölkə üçün yaxşı bir təklif kimi həyaya keçirilməlidir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 277 (6598) 13 dekabr 2016

# SOCAR niyə zərərlə işləyir...

## Ekspertlər şirkətin özəlləşdirilməsinin vacibliyini vurğulayırlar

**SOCAR-ın durumunun ağır olması yenidən gündəmə gətirilib. İqtisadiyat naziri Şahin Mustafayev son olaraq məsələyə diqqət çəkərək bildirib ki, SOCAR faktiki olaraq zərərlə işləyir: "Azərbaycanda yeni elektrik enerjisi, təbii qaz tariflərinin dolayı təsirlərinin kompensasiya edilməsi üçün müvafiq tədbirlər nəzərə tutulub. SOCAR hər kubmetr qazın satılması üçün 140 manat xərcləyir.**

Hazırda qazın orta satış qiyməti 90 manatdır. SOCAR faktiki olaraq zərərlə işləyir. SOCAR tərəfindən investisiyaların qoyulması, hətta qazın hasilatının sabit saxlanması mümkün olmurdu. SOCAR-a büdcə hesabına invesisiyaların ayrılması gündəmə gəlirdi. Qazın hasil edilməsi, istehlakçılara çatdırılması üçün təmir işləri zəruri idi. Prezident tərəfindən həyata keçirilən sosialyönümlü siyasəti nəzərə alaraq sosial baxımından həssas təbəqinin maraqlarını qorumaq üçün optimal qərar qəbul edilib. 1500 kubmetr güzəştli tariflə müəyyən edilmiş istehlakdır. Əhalinin 62 faizi 1500 kubmetrədək qaz istifadə edir. Böyük hissə bundan zərər çəkməyəcək, onlara qənaət üçün stimul verəcək".

*Qeyd edək ki, ötən həftə Rusiyanın "Rostneft" şirkətinin özlləşdirməsi başa çatıb. Əgər SOCAR-ın durumu yaxşı deyilsə, şirkət nədən özəlləşdirilmir? Ekspertlər bu barədə musavat.com-a danışıblar.* **Ekspert Vüqar Bayramov** musavat.com-a deyib ki, iqtisadiyyat nazirinin məlumatı doğrudur: "SOCAR-ın özəlləşdirilməsi məsələsi yenidən gündəmə gələ bilər. Ən azı, səhmlərin bir hissəsinin özəlləşdirilməsinə ehtiyac var. Artıq neft bumu başa çatır. SOCAR böyük şirkətdir, öhdəlikləri var. Ona görə birinci mərhələdə səhmlərinin bir hissəsinin, 30 faizinin özəlləşdirilməsi daha məqsədəuyğundur. Sonrakı mərhələdə tamamilə özəlləşdirilməsi mümkündür. Postneft dövrü artıq bunu daha real edir".

**Ekspert Natiq Cəfərli** isə qeyd edib ki, əvvəla, qazın maya dəyərinin yüksək olmasına aydınlıq gətirilməlidir: "İqtisadiyyat naziri Şahin Mustafayev deyib ki, SOCAR ziyanla işləyir, həm də şirkətdə 1000 kub metr qaz hasilatının maya dəyəri 140 manatdır. Təbii inhisarçı olan bir şirkətin ziyanla işləməsi nonsensdir, bunun bir izahı olmalıdır. O ki, qaldı qazın maya dəyərinə, işçilərinin maaşı SOCAR-dan 2-3 dəfə artıq olan, daha ağır şəraitdə qaz hasil edən "Qazprom" şirkətində 1000 kub metr qazın maya dəyəri 20 dollardır, rəsmi məzənnə ilə 35 manatdır. Necə olur ki, SOCAR-da bu rəqəm 140 manat təşkil edir? Niyə maya dəyəri bu qədər yüksəkdir? Bu sualın cavabını Rövnəq Abdullayev verməlidir, məsələyə aydınlıq gətirməlidir, günki nazir məhz SOCAR-ı hədəf göstərdi".

**Ekspert musavat.com-a bildirib ki, SOCAR-ın vəziyyətində ciddi problemlər var**: "SOCAR-ın ən böyük problemi xarici borcun kifayət qədər yüksək səviyyədə olmasıdır. Az qala, şirkətin borcu 8 milyard dollara yaxınlaşır. Dövlət borcu qədər tək bir şirkətin borcu var. Bu borclarla bağlı faizlərin və ana məbləğin qaytarılması gündəmdədir. SOCAR zaman-zaman qazancının böyük bir hissəsini borclara sərf etməlidir. Yəni SOCAR-da olan vəziyyət xarici borcun çoxluğu və daxildən idarəetmənin təkmil olmaması ilə əlaqədardır. Daxildə təkmilləşdirmə addımları atılmaldır ki, SOCAR-ın izafi xərcləri azaldılsın. Daha çevik şəkildə idarə olunmalıdır ki, izafi xərclərin azalması hesabına rentabelliyini artırsın. Amma görünən odur ki, struktur islahatlarındansa, qiymət artımı yolu ilə SOCAR-ı düşdüyü ağır durumdan çıxarmağı düşünürlər. Bu da doğru yol deyil. Rusiyanın son zamanlar artığı addımlar bir örnək ola bilər, "Rostneft" kimi strafetji bir şirkətin bir hissəsini satışa çıxarmaq və büdcəyə əlavə 10,5 milyard dollara yaxın vəsait cəlb etmək doğru qərar idi. Gələcəkdə SOCAR-ın ən azından ana şirkəti deyil, törəmə şirkətlərini satışa çıxarmaq, özəlləşdirmək daha məqsədəuyğun ola bilərdi. Çünki hələ ki, SOCAR-ın törəmə şirkətləri də, özü də xarici investorlar üçün çox cəlbedicidir. Hələ ki, bundan istifadə etmək lazımdır. Bir müddət sonra bu cəlbedicilik itə bilər. Çünki SOCAR-ın borcları kəskin şəkildə artacaqsa, aktivlərinin cəlbediciliyi azalacaq. Hələ ki, bu cəlbedicilik var və düşünürəm ki, hökumət ciddi şəkildə bundan istifadə etməlidir. Şirkətin özünün olmasa belə, törəmə şirkətlərinin özəlləşdirməyə açılmasına qərar verilməlidir".

❑ **R.RƏFİYEVA**

# OPEK-in razılığı neftin qiymətini yüksəldəcəkmi...

## Ekspertlər bildirirlər ki, bazar OPEK toplantısından çıxan qərarı yenidən araşdırmağa çalışır

**Nəhayət ki, OPEK ölkələri neftlə bağlı razılığa gəliblər. "OPEK-ə üzv və qeyri-üzv ölkələr arasında neftin hasilatına dair razılaşmanın əldə olunması tarixi hadisədir",- deyə OPEK prezidenti Qətərin energetika naziri Məhəmməd bin Saleh əs-Sada deyib. Qeyd edək ki, OPEK-ə üzv olmayan ölkələr ötən gün gündəlik neft hasilatını 558 min barel azaldılmasına dair razılığa gəliblər. (APA)**




OPEK-ə üzv olmayan ölkələr gündəlik neft hasilatını 558 min barel azaldılmasına dair razılığa gəliblər. Azərbaycan Energetika Nazirliyinin mətbuat xidmətindən verilən xəbərə görə, bunu **energetika naziri Natiq Əliyev** Vyanada Neft İxrac Edən Ölkələrin Təşkilatına (OPEK) üzv və kartelə daxil olmayan ölkələrin görüşünün yekunları ilə bağlı açıqlamasında bildirib. Natiq Əliyev iclasın müsbət keçdiyini, OPEK və qeyri-OPEK ölkələri arasında əməkdaşlıq haqqında Bəyannaməni razılaşdırdıqlarını bildirib. Onun sözlərinə görə, görüşdə OPEK ölkələri gündəlik neft hasilatını 32,5 milyon barel həcmində saxlamaqla bağlı öhdəliklərini bir daha təsdiqləyərək, bu həcmdən artıq neft istehsal etməyəcəklərini bəyan ediblər.

"Görüşdə OPEK-ə üzv olmayan 11 ölkə iştirak edib. Bu ölkələrin 2017-ci il yanvarın 1-dən gündəlik neft hasilatını 558 min barel azaltmaları barədə razılıq əldə olunub. Razılaşmaya əsasən, Azərbaycan üçün bu göstərici sutkada 35 min barel müəyyənləşdirilib. Rusiya isə hasilatı gündəlik 300 min barel azaltmağa razılaşıb",- deyə nazir qeyd edib. Natiq Əliyev bildirib ki, qəbul edilən qərarın icrasına nəzarət məqsədilə Rusiya və Küveytin rəhbərliyi ilə Monitorinq Komitəsinin yaradılması məqsədəuyğun hesab edilib: "OPEK və təşkilata daxil olmayan ölkələr razılığa gəliblər ki, neft bazarında qiymətlərin sabitliyinin uzunmüddətli olması üçün mütəmadi görüşlər keçirilsin. Eyni zamanda tədbirdə iştirak etməyən digər qeyri-OPEC ölkələri də bu sazişə qoşulmağa dəvət edilib".

Qeyd edək ki, OPEK-ə qeyri-üzv ölkələr üç gün əvvəl Vyanada keçirilən görüşdə neft hasilatının ümumi həcmini sutkada 600 min bareldən çox azaltmağı qərara alıblar. OPEK-ə qeyri-üzv ölkələr neft hasilatının sutkalıq həcminin 612 min barel azaldılmasına dair razılığa gəliblər. Bu barədə Nigeriya Neft Nazirliyinin "Tvitter" səhifəsində dərc edilmiş məlumatda bildirilir. Qeyd edək ki, OPEK-ə üzv olan ölkələr noyabrın 30-da neft hasilatının həcmini sutkada 1,2 milyon barel azaldılmasına dair qərar qəbul edib.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, neftin qiymət dəyişməsi on gün ərzində dalğalı şəkildə davam edəcək: "OPEK toplantısından çıxan qərarı bazar yenidən araşdırmağa çalışır. Özünü inandırmağa çalışır ki, bu qərarlar yerinə yetiriləcək. Əslində, onların yerinə yetirilməsi problemdir. Dekabrın sonunda Vyanada növbəti toplantı olacaq. OPEK-Rusiya görüşməsi nəzərə tutulub. Bu görüşdən də bazarın gözləntiləri var. Hələlik neft qiymətlərində kəskin dəyişikliklərin olması ehtimalı aşağıdır. Hələ də təqbirən 53-55 dollar civarında koridorda qalması ehtimalı var. Bundan sonra bazar artıq artma köklənəcək . Dekabrın 14-də növbəti FES toplantısı var. Toplantıda faizin artacağı ehtimalı çox yuxarıdır. Demək olar ki, həll olunmuş məsələdir. Faiz artımından sonra dolların bahalaşması qaçılmazdır. Bir qanunauyğunluq mövcuddur dünya iqtisadiyyatında, dollar bahalaşdıqca, əmtəə mallarının, o cümlədən neftin ucuzlaşması prosesi baş verir. Təqribən 10-12 gün ərzində neft bazarında dalğalanmalar olacaq. İlin sonuna yaxın bu dalğalanmaların aşağı düşməsi və qiymətlərin stabilləşməsi müşahidə olunacaq. Bazar yenidən hasilatın artım tempinə, istehsalın artmasına köklənəcək".

**Onun sözlərinə görə, gələn il Qazaxıstanın Kaşaqan neft yatağından əlavə neftin bazara çıxarılması gözlənilir**: "Bundan başqa, Liviya, Nigeriya də İraqda ciddi hasilatın artımı prosesi gözlənilir. Amerikada hasilatın artım sürəti getdikcə artır. Bu fundamental faktorlar gələn ilin əvvəllərində işə düşsə, hasilatın artımının neftə ciddi təsir olacaq və neft qiymətlərinin yenidən 40-45 dollar koridoruna çəkilməsini izləyə bilərik".

**Ekspert Qubad İbadoğlu** isə musavat.com-a bildirib ki, OPEK-in qərarının bazara müəyyən təsiri ola bilər: "Amma ciddi qiymət artımından söhbət getmir. Çünki ciddi qiymət artımı üçün nə iqtisadi, nə siyasi, nə sosial şərait yetişib, nə də ki, bazar bu səviyyədə ciddi qiymət artımını reallaşdıracaq dərəcədə bu prosesə hazırdır. Bu, psixoloji təsirlərdən baş verən qiymət artımıdır və hətta gələn ildən reallaşacaq. Gələn ilə qədər qiymətlərin yenə də ucuzlaşıb-artması, əvvəlki səviyyədə qərarlaşması gözlənilmir. Azərbaycan üçün yalnız qiymət artımı əhəmiyyətli məsələ deyil. Azərbaycanda neft və qaz hasilatı aşağı düşür. Eyni zamanda, hasilat xərcləri artır. Burada qiymət faktoru önəmlidir. Çünki qiymət daha yüksək olanda təbii ki, qiymətdə daha çox qazanmaq imkan var. Amma nəzərə alsaq ki, istehsalın həcmi aşağı düşür, hasilat xərcləri artır, qiymət artımının təsiri azalır. Amma istənilən halda, mövcud vəziyyəti heç olmasa, minimum səviyyədə sabitləşdirmək üçün Azərbaycanda indiki qiymətlərlə müqayisədə iki dəfə bahalı neft lazımdır".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 277 (6598) 13 dekabr 2016

# Generaldan sensasion gündəm açıqlamaları

**Dövlət təhlükəsizliyi xidmətinin rəisi Mədət Quliyev son günlər reket "jurnalist"lərə qarşı keçirilən əməliyyatlardan danışıb. Son dərəcə sensasion açıqlamalar verən xidmət rəisi M.Quliyev həmin jurnalistlərin qeyri-qanuni fəaliyyətlə məşğul olduqlarını qeyd edib: "Bu, qalmaqallı məsələdir. Müəyyən vəzifəli adamlar, onların övladları ilə bağlı qeyri-qanuni videoçəkilişlər aparıblar və bununla əlaqədar pul tələb ediblər. Məsələ ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində cinayət işi başlanıb. Bunlara hüquqi qiymət veriləcək".**




# Mədət Quliyev Mahmudovun media çetesini necə çökdürdü - təfərrüat

## DTX sədri reket "jurnalist"lərin həbsinin gizlinlərini açıqlayıb; MTN-in nəzarətindəki mətbuat bəzi vəzifəli şəxsləri övladlarının video-çəkilişləri ilə şantaj edirmiş; M.Quliyev həmçinin "qara bazar" və antiterror əməliyyatlarından da danışıb

Xatırladaq ki, ötən həftə DTX "Bizim dövr" qəzetinin (həmçinin eyni adlı saytın) redaktoru Surxay Əliyevi və onun müavinini, habelə "Gündəlik Bakı" qəzetinin (həmçinin eyni adlı saytın) redaktoru Habil Vəliyevi həbs edib. DTX-in açıqlamasına görə həmin şəxslər gizli videoçəkilişlər aparmaqla və digər qeyri-qanuni yollarla şantajla məşğul olub, hədə-qorxu yoluyla şantaj olunan şəxslərdən pul qoparıblar.

M.Quliyev ötən 1 il ərzində xidmətdən xaric edilən əməkdaşlar haqda da sualları cavablandırıb.

"İl ərzində 500-dən artıq əməkdaş xidmətdən xaric olunub" - deyə M.Quliyev bildirib. Onun sözlərinə görə, xidmətdən xaric olunan işçilərdən 20 nəfərdən çoxu barəsində cinayət işi başlanıb: "Bu, təbii prosesdir. Çünki xidmətdə təmizləmə prosesi aparılır".

**DTX sədri ölkəmizin terror təhdidlərindən özünü qoruya bildiyini də açıqlayıb:** "Azərbaycan özünü terror təhlükəsindən qorumaq üçün bütün zəruri addımları atır". Deyib ki, Azərbaycanın xüsusi xidmət orqanları və hüquq-mühafizə orqanları birgə əməkdaşlıq çərçivəsində işləyirlər: "Burada əsas məsələ isə dövlət rəhbərliyinin apardığı siyasət və onun xalq tərəfindən dəstəklənməsidir. Xalqımız qədirbilən xalqdır, ölkə başçısının apardığı siyasəti dəstəkləyir. Biz bunu bu il sentyabrın 26-da ölkədə keçirilən referendum zamanı da gördük".

**M.Quliyev ölkədə dollar möhtəkirliyi ilə mübarizə haqda sualı da cavablandırıb:** "Azərbaycanda dolların "qara bazarı" var idi, bununla bağlı dövlət başçısının tapşırığına əsasən məruzələr edirdim. Bununla bağlı araşdırmalar aparılır, şübhəli şəxslər var. Bu istiqamətdə bundan sonra da qətiyyətli addımlar atılacaq".

**Sabiq xüsusi xidmət zabiti, politoloq Arzu Nağıyev Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi son əməliyyat axtarış tədbirlərini təqdirəlayiq adlandırıb. Deyib ki, ağır kadr siyasəti ilə paralel olaraq belə əməliyyatların baş tutması çətin bir prosesin uğurla həyata keçirilməsinin göstəricisidir:** "DTX-nın gerçəkləşdirdiyi antiterror əməliyyatları da müsbət hal kimi qiymətləndirilməlidir. Bu onu göstərir ki, DTX müsbət istiqamətdə işini qura bilib".

A.Nağıyev bildirib ki, ən başlıcası odur ki, DTX qarşısına qoyulan əsas vəzifələri layiqli şəkildə yerinə yetirdiyini sübuta yetirir, vətəndaşlarının konstitusion hüquqlarının pozulmasına yönələn hərəkətlərin qarşısının alınması üçün vaxtında tədbirlər görür, Azərbaycan vətəndaşına qarşı yönəlmiş terror təhdidini önləyə bilir.

**A.Nağıyev son 10 ildə reket "jurnalist"lərə qarşı mübarizə aparılmamasının səbəbinə də toxunub:** "Həmin adamlar xüsusi xidmət orqanlarının rəhbərliyində təmsil olunmuş şəxslərin nəzarətində olublar, özü də çox güclü himayə olunublar. Belə vəzifə daşıyıcıları ilə birbaşa bağlı olduqlarına görə reket "jurnalist"lərin qarşısını almaq qeyri-mümkün olub. Himayəçilərinin qanadı altında ayrı-ayrı şəxsləri, hətta vəzifə sahiblərini də şantaj ediblər. Bu gün xüsusi xidmət orqanları belə qanunsuz fəaliyyətlə məşğul olanlara qarşı çox ciddi fəaliyyətdədir. Yəqin ki, dövlət, hakimiyyət rəhbərliyinin də bu istiqamətdə müvafiq tapşırıqları var. O şəxslər himayə edilməsəydilər, 10 il müddətində öz qanunsuz fəaliyyətlərini davam etdirə, vəzifə daşıyan şəxsləri onların övladlarının özəl həyatları ilə şantaj edə bilməzdilər".

A.Nağıyev Azərbaycan mentalitetinin belə hallara münasibətdə çox kəskin mövqedə olduğunu da diqqətə çatdırıb: "Əməliyyat axtarış fəaliyyəti həyata keçirməyə icazəsi olmayan şəxslərin belə texnikalardan istifadə etməsi artıq qanunsuzluq, cinayətdir. Belə texnikanı bu şəxslərə kim verib? Niyə verib? Bu sualların cavabı bir çox mətləbləri üzə çıxaracaq. Mədət Quliyevin də açıqlamasından bəlli oldu ki, hazırda cinayət işi başlanıb, istintaq gedir. İstintaqın reket "jurnalist"lərin hansı vəzifə sahiblərini, iş adamlarını nə vaxt, hansı üsulla, hansı texniki vasitələrdən istifadə etməklə şantaj materialları topladıqlarını ortaya qoyacağına əminəm. Bu adamların hərəkətlərindən belə nəticəyə gəlmək olur ki, Azərbaycan mentalitetinin bilirlər, iş adamlarını, vəzifə sahiblərini övladları ilə şantaj ediblər. Övladdan valideynə qarşı istifadə etmək həm də mənəviyyata zidd əməldir. Hər bir insanın bir zəif cəhəti var. Bu cəhətlərdən istifadə edib nüfuzdansalma elementləri toplamaqla gizlinləri yayacaqları ilə təhdid ediblər. Düşünürəm ki, bura da bəzi xüsusi xidmət orqanı nümayəndələrinin təlimatlarından yararlanıblar. Bunlar özbaşına belə addımlar ata bilməzdilər. Atsaydılar belə, bu, çox qısa müddətli olar, 10 il davam edə bilməzdi".

**A.Nağıyev reket "jurnalist"lərə qarşı başladılmış cinayət işinin istintaqının onların himayədarlarına qədər uzanacağını da istisna etməyib:** "Düşünürəm ki, bu şəxslərin həbs olunmasında əsas məqsəd ötən 10 il ərzində onların bütün əlaqələrinin ortaya çıxarılmasıdır. Cinayət işinin başlanması zərərçəkənlərin dairəsinin müəyyən edilməsi və himayədarlarının, yol göstərən şəxslərin vəzifəsində və tutduğu mövqedən asılı olmayaraq müəyyən edilərək istintaqa cəlb edilməsinə xidmət edir".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Reketlər həbs olundu, bəs onları himayə edən məmurlar?..

**Son günlər reket jurnalistlərə qarşı keçirilən əməliyyatlar mətbuatın ciddi müzakirə mövzularındandır. Dekabrın 12-də Dövlət təhlükəsizlik xidmətinin rəisi Mədət Quliyev son günlər reket jurnalistlərə qarşı keçirilən əməliyyatlardan danışıb. M.Quliyev həmin jurnalistlərin qeyri-qanuni fəaliyyətlə məşğul olduqlarını qeyd edib: "Bu, qalmaqallı məsələdir. Müəyyən vəzifəli adamlar, onların övladları ilə bağlı qeyri-qanuni videoçəkilişlər aparıblar və bununla əlaqədar pul tələb ediblər. Məsələ ilə bağlı Dövlət Təhlükəsizlik Xidmətində cinayət işi açılıb. Bunlara hüquqi qiymət veriləcək".**

Amma ortada çox daha ciddi suallar var. Bunlardan biri də həmin jurnalistlərin, redaktorların arxasındakı məmurların cəzalandırılıb-cəzalandırılmayacağı ilə bağlıdır. Heç kimə sir deyil ki, bu sayaq jurnalistlər heç də arxasız-dayaqsız fəaliyyət göstərə bilməzdilər. İndiki halda isə reket mətbuatı saxlayan, bəsləyən məmurların cəzalanması da səslənən tələblər sırasındadır. Media siyasətinə yeni korrektələr şərtdir və gözlənilləndir. Kimin əlində nə kimi mətbu resurs varsa, hamısı alınır və bir mərkəzdə cəmləşdirilir. Redaktorlar bu haqda nə düşünür?

**"Turan" agentliyinin direktoru Mehman Əliyev** bildirdi ki, indiki ərəfədə reket jurnalistlərin həbsi "KİV haqqında" Qanuna edilən son dəyişikliklərlə bağlıdır. Belə ki, sözügedən dəyişikliklərdə şərəf və ləyaqətə toxunma, insanların şəxsi həyatına müdaxilə adekvat cəzanı nəzərdə tutur: "İndi isə reketləri ona görə həbs



**Mehman Əliyev:**
"Onları bağlı qapılar arxasında cəzalandıracaqlar"



**Pərviz Həşimli:**
"Habil Vəliyevi himayə edənlər həbsdədir, digərləri isə..."

edirlər ki, gələcəkdə baş verəcək digər həbslər üçün zəmin yaratsınlar. Qurbanlıq o adamlar olur ki, jurnalistikaya heç bir aiddiyyatı olmur. Sabah keçəcəklər normal jurnalistlərə, bloqqerlərə, sosial şəbəkədə tənqidi status yazan vətəndaşlara. Deyəcəklər ki, biz onsuz da bu cür həbsləri daha öncə də edirdik, sizə özəl deyil".

**Müsahibimiz hesab edir ki, reket jurnalistlərin arxasında dayanan məmurlar açıq şəkildə cəzalandırılmayacaq. Onları bağlı qapılar arxasında, danışıqlar nəticəsində cəzalandıracaqlar:** "Onsuz da bunları himayə edənlər oliqarxlar deyildi. Onları xüsusi xidmət orqaları həbs etdirib. Həbs olunan tipajları tanıyıram. Əvəz Zeynallı həbs olunan zaman biz onun hüquqlarını müdafiə komitəsi yaratmışdıq. Habil adlı o redaktor gəldi və provakasiya yaratdı. Onda göründürdü ki, bu adam idarə olunur. Bu şəxslərin biznes və dükanları var. Təəssüflər olsun ki, medianın əksəriyyəti bu cür adamlardan ibarətdir".

**Gununsesiinfo.az portalının rəhbəri Pərviz Həşimli** isə hesab edir ki, bu gün də ölkədə reket media var. Sadəcə onlar Habil Vəliyev kimi yüksək səviyyədə himayə olunmayıblar: " Onlar istənilən bir məhkəmədə uduzurlar və dərhal hədələdikləri, təhqir etdikləri şəxslərdən üzrxahlıq edirlər. Düşünmürəm ki, onların arxasında məmurlar dayanır. Məmur dayanan qəzet ayda bir dəfə nəşr olunmaz. Amma Habil Vəliyevlə bağlı məsələ tamamilə fərqli idi. Onun qəzeti və əlindəki saytlar bir neçə ildir ki, MTN-nin Anti-Terror Mərkəzinin himayəsi altında idi. Bu adamı dəfələrlə məhkəməyə versələr də, onun cəzalanmasına nail ola bilmirdirlər. Mən millət vəkilləri, icra başçıları, baş həkimlər tanıyıram ki, Habil Vəliyevlə bacarmırdı. Hətta onunla bağlı araşdırmalarımda öyrəndim ki, Habil Vəliyev hər ay Anti Terror Mərkəzinin rəis müavini İlqar Əliyevə 30 min aylıq verirmiş. MTN özü tora salmaq istədiyi adamlarla bağlı dezinformasiyanı ona ötürürdü sonra həmin adamı çağırıb, pullarını alırdılar. Həbsimdən 10 gün əvvəl "Gündəlik Bakı" adı qəzet guya, Cavid Qurbanovun və Vəli Nağıyevin mənim vasitəmlə müxalifətə pul ötürməsi kimi böhtan xarakterli informasiya yaymışdı. Bu xəbəri MTN-nin sifarişi ilə tirajlamışdılar. Bu xəbərdən 1 həftə sonra məni həbs etdilər. Həmin o böhtan xarakterli yazını ATM rəisi general Elçin Quliyev masanın üzərinə qoydu və izahat tələb etdi. Mən də ""öz qəzetinizdir, özünüz yazdırmısınız" dedim".

**Müsahibimiz hesab edir ki, DTX-nin bu prosesi ələ alması müsbət haldır:** "Hesab edirəm ki, bu çoxları üçün bir dərs olacaq. Onsuz da qeyri-rəsmi olsa da Habil Vəliyev və digər şəxslər "MTN İşi" çərmivəsində sorgu-sual olunur. Mən bu barədə məlumatlıyam. Habili himayə edənlər həbsdədir".

❑ **Sevinc TELMANQIZI**

**Avropa Şurası Nazirlər Komitəsi həbsdəki REAL sədri İlqar Məmmədovla bağlı növbəti qərarını qəbul edib. Beynəlxalq qurum Avropa Məhkəməsinin İlqar Məmmədovla bağlı qərarının icrası ilə bağlı Azərbaycanın hakimiyyət nümayəndələrindən hər hansı bilgi alınmamasından narahatdır. Nazirlər Komitəsi rəsmi Bakını qurumla dialoqa dəvət edir.**

# Hakimiyyət Avropanın İlqar Məmmədovla bağlı tələbini niyə saya almır?



## **Azər Qasımlı:** "Onu həbsdə saxlamaq çətin olacaq"

## **Bəxtiyar Sadıqov:** "Kiminsə çaldığı havaya oynamırıq"

**Qərarda vurğulanır ki, İlqar Məmmədovla bağlı qərarın qüvvəyə minməsindən iki ildən artıq vaxt keçir.** Ancaq Avropa Şurası Nazirlər Komitəsinin, qurumun baş katibinin çoxsaylı çağırışlarına rəğmən o hələ də həbsdə saxlanılır. Nazirlər Komitəsi İ.Məmmədovla bağlı əvvəlki qərarlarını, xüsusilə siyasətçinin dərhal azadlığa buraxılması ilə bağlı çağırışlarını bir daha Azərbaycan hökumətinə xatırladır. Beynəlxalq qurum İ.Məmmədovla bağlı qərarın həyata keçirilməsinin təmin olunmasında qətiyyətli olduğunu bir daha vurğulayıb. Bunun üçün bütün vasitələrdən, o cümlədən Avropa Konvensiyasının 46.4-cü maddəsindən istifadə ediləcəyinin anonsunu verib.

Qeyd edək ki, bu qərarı da saysaq, REAL sədri ilə bağlı indiyə qədər 9 qərar qəbul edilib. Hər bir qərarda da onun dərhal azadlığa buraxılması tələb olunur. Amma görünən odur ki, Azərbaycan hakimiyyəti bu şəxsi azadlığa buraxmamaqda israrlı görünür. REAL sədrini iqtidar üçün bu qədər vazkeçilməz edən, onun üçün Avropa Şurasını qarşısına belə alan hakimiyyətin nədən direniş göstərdiyi suallar doğurur.

**REAL hərəkatının idarə heyətinin üzvü Azər Qasımlı Nazirlər Komitəsinin bu qərarının gözlənilən olduğunu qeyd etdi:** "Hesab edirəm ki, bu qərar Azərbaycan hökumətinə verilən son xəbərdarlıqdır. Belə də olacağına ümid edirəm. İlqar Məmmədov həbsdən azad olunmasa, bu məsələ bir daha gündəmə gələcək. O zaman 46-cı maddənin Azərbaycana tətbiq olunma ehtimalı çox yüksəkdir. Artıq İlqar Məmmədovun iki aydan sonra həbsinin 4 ili tamam olur. Qəbul edilən qətnamələr, qərarlara baxmayaraq, o hələ də qanunsuz olaraq həbsdə saxlanılır. İqtidar İlqarı azad etmək istəmir. Ölkədə hazırda vəziyyət sürətlə dəyişir. Vəziyyət dəyişdikcə, İlqar Məmmədovu həbsdə saxlamaq olduqca çətin olacaq. Xaricdən gələn təzyiqlər də artacaq. Daxildən də iqtidara təzyiqlər olacaq ki, İlqarı azad etsin. Düşünürəm ki, çox yaxın zamanlarda o, azad olunacaq".

**REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova İ.Məmmədovun son durumu və qəbul edilən qərarla bağlı bunları dedi:** "İlqarla dekabrın 11-də telefonla danışdıq. Hər şey qaydasındadır. Nazirlər Komitəsi qərar qəbul etdi və əgər İlqar azad olunmasa, konvensiyanın 46.4-cü maddəsinin tətbiqi mümkündür. Qarşıda əfv sərəncamı gözlənilsə də, açığı ümidimiz yoxdur. Hər halda çox uzun zaman da qalmayıb, gözləyək, görək sonda nə olur".

**İ.Məmmədovun vəkili Fuad Ağayev bildirdi ki, hakimiyyət REAL sədri barəsində beynəlxalq qurumların qəbul etdiyi qərarları nəzərə almalıdır:** "İlqar Məmmədov barəsində Avropa İnsan Haqları Məhkəməsinə məhkəmə baxışı ilə bağlı göndərdiyimiz ikinci şikayət artıq hökumətə kommunikasiya edilib. Hökumət ən uzağı yanvar ayında Avropa Məhkəməsinin ünvanlandığı sorğu-suallara cavab verməlidir".

**YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov dedi ki, Avropa Şurasının REAL sədrinin azadlığa buraxılması ilə bağlı təkidi barədə bir söz deyə bilməz:** "Avropa Şurası problemlərlə bağlı təkid etməli, yaxud onun həllinə kömək etməli olduğu məsələlərdə susur. Söhbət Dağlıq Qarabağ münaqişəsindən gedir. Avropa Şurası işğal faktını qəbul edib. ATƏT-in MİNSK qrupu 24 ildir bu işlə məşğuldur və ortaya bir nəticə qoymayıb. Avropa Şurası isə bu məsələlərdə hələ də "dözümlülük" göstərir. Əgər söhbət beynəlxalq hüquqdan, insan haqlarından gedirsə, öncəliklə gəlin ölkəmizin pozulmuş hüquqlarını bərpa edək, qoruyaq. Mən bir milyondan çox məcburi köçkünü deyirəm, Şahbaz və Dilqəm kimi vətəndaşlarımızın öz doğma torpaqlarını ziyarət edərkən əcaib şəkildə əsir götürülüb birinə ömürlük, o birinə də 20 il həbs cəzasının verilməsini nəzərdə tuturam. Niyə Avropa Şurası bu məsələlərdə təkid etmir? İlqar Məmmədovla bağlı məhkəmə araşdırması olub, şahidlər dindirilib, ifadələrə baxılıb və sonda qərar qəbul edilib. Azərbaycan müstəqil dövlətdir, özünün qanunverici orqanı var. Öz hüququmuza, məhkəməmizə inanırıq. Əgər Avropa Şurası istəyir ki, kimsə həbsdə yatmasın, o zaman nəzərə almalıdırlar ki, biz Ermənistan kimi vassal dövlət deyilik, kiminsə çaldığı havaya oynamırıq. Azərbaycan iqtidarı çox doğru addım atır, biz məhkəmələrin qərarlarına hörmətlə yanaşırıq. Biz kimin hansı əməllə məşğul olduğunu çox gözəl bilirik. Bir jurnalist olaraq, Avropa Şurasının bu təkidinin arxasında nələrin gizləndiyini yaxşı bilirəm. Örtülü məsələlərlə örtülü oyun oynamaq lazım deyil. Azərbaycan hökumətinin öz qərarının üzərində durması, müstəqil siyasət yürütməsi bir vətəndaş kimi məni çox razı salır".

❑ **Cavanşir ABBASLI**

# Səfirlərin rəsmi qəbula milli geyimdə getməsi doğrudurmu...

## "Diplomatik etiket qaydaları var, amma tövsiyə şəklindədir, məcburiyyət xarakteri daşımır"

**Bir neçə gün öncə Mərakeşin Azərbaycana yeni təyin olunmuş səfiri Məhəmməd Adil Embarşın etimadnaməsi prezident tərəfindən qəbul edilib. Səfirin etimadnamənin qəbulu mərasiminə qeyri-adi görünən geyimdə, "şəpit"ə oxşar ayaq geyimində qatılması sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilib. Mərakeşin milli geyimində olmasına baxmayaraq səfirin diplomatlara xas kostyumda olmaması diqqətdən yayınmayıb və suallar yaradıb. Ümumiyyətlə, səfirlərin diplomatik görüşlərdə, xüsusilə də dövlət başçılarına etimadnamələrini təqdim edən zaman milli geyimlərində olmaları diplomatik etiket sarıdan doğrudurmu?**



**Politoloq Qabil Hüseynli** bildirdi ki, diplomatik etiket qaydaları var, amma tövsiyə şəklindədir, məcburiyyət xarakteri daşımır. Rəsmi görüşlərdə, ziyafətlərdə tətbiq edilən geyim qaydaları diplomatik etiketdə göstərilir. Amma məcburiyyət olmadığından bəzi dövlətlər öz milliliyini sanki nəzərə çatdırırmış kimi və eyni zamanda guya sadə bir formada özlərini təqdim etmək üçün səfirləri rəsmi görüşlərdə diplomatik etiket qaydalarına daxil olmayan milli geyimlər geyinirlər: "Mən inanmıram ki, həmin şəxslər öz ölkələrində də bu cür geyimlər geyinsinlər. Düzdür, ərəb ölkələrinin bəzilərində, məsələn, Səudiyyə Ərəbistanı, Qətər, Küveyt kimi ölkələrdə geyim forması bir qayda olaraq milli xarakter daşıyır. Buna milli xarakterdən daha çox dini xarakter daşıyır desək, yanılmarıq. Onlarda bu məcburi surətdə hər kəsə tətbiq edilir. Mən Misirdə, Səudiyyədə və digər bir neçə ərəb ölkələrində rəsmi səfərlərdə iştirak etmişəm. O ölkələrdə küçədə milli geyimdə dolaşan insanlarla yanaşı, avropasayağı geyinən şeyxlərə rast gəlmək olur. Mərakeş də islam dininin fundamental şəkildə oturuşduğu və islam qaydalarının tətbiq edildiyi bir ölkədir. Bu ölkədə islami adət-ənənələrə üstünlük verilir və eyni zamanda bu islami adət-ənənələr guya milli xarakter daşıyırmış kimi cəmiyyətə təqdim edilir. Mərakeş və bu kimi ölkələrin səfirləri təkcə Azərbaycanda deyil, digər ölkələrdə də dövlət rəhbərlərinə etimadnamə təqdim edərkən milli geyimlərində olurlar. Şəxsən mən bunu alqışlamıram. Hesab edirəm ki, diplomatik fəaliyyət xüsusi geyim qaydaları tələb edir. Bir ölkənin prezidenti başqa bir ölkəyə rəsmi səfər edirsə, orada onun şərəfinə rəsmi ziyafət verilirsə, ziyafət zamanı geyim qaydaları fərqli olur və məcburi xarakter daşıyır. Frak geyinməlisən, fraka uyğun qalstuk taxmalısan və sair. Səfirlər yaxşı olar ki, rəsmi qəbullarda diplomatik etiketə uyğun geyimdə olsunlar. Diplomatik missiya yerinə yetirən insanlar üçün rəsmi görüşlərdə milli geyimdə olmaq o qədər yaraşıqlı, rəsmiyyətə uyğun görünmür. Bütün bunlar millilikdən daha çox sivilizasiyanın tələblərindən uzaqlaşmaq kimi də yozula bilər".

*Bəs Protokol Xidmətinin səfirlərə rəsmi görüşə geyindiyi geyimlə bağlı etiraz etmək səlahiyyəti varmı?*

**Q.Hüseynli vurğuladı ki, rəsmi ziyafət, diplomatik qəbullar, tədbirlər üçün BMT tərəfindən xüsusi geyim formaları təsdiq edilib:** "Amma bu tövsiyə xarakteri daşıyır. Azərbaycanın Prezident Administrasiyasında da Protokol Xidməti var. Protokol Xidməti sadəcə olaraq görüşün təşkili, baş tutması kimi məsələlərə baxır. Amma onun elə bir səlahiyyəti yoxdur ki, səfirə geyim qaydaları barədə məcburi nələrisə diktə etsin. Yaxşı olar ki, səfirlər özləri diplomatik geyim qaydalarına riayət eləsinlər".

**Qeyd edək ki, təkcə Mərakeş səfiri deyil, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Hindistan, bəzi Afrika ölkələrinin səfirləri də rəsmi diplomatik görüşlərdə milli geyimdə olurlar. İsrailin səfirləri isə başlarında milli geyimləri olan fəslə etimadnamələrini təqdim edirlər.**

❑ **Etibar SEYİDAĞA**



## "Türkmənistanla tam razılıq əldə olunmayıb"

**"Biz Türkmənistanla ikitərəfli danışıqlar formatını saxlamışıq, ara-sıra məsləhətləşmələr keçirilir".**

APA-nın məlumatına görə, bunu xarici işlər nazirinin müavini, Xəzərin hüquqi statusuna dair işçi qrupunun üzvü Xələf Xələfov Xəzərdəki "Kəpəz" ("Sərdar") yatağı ilə bağlı Türkmənistanla Azərbaycan arasında mövcud fikir ayrılığı barədə suala cavabında deyib.

X.Xələfov bildirib ki, Xəzərin hüquq statusuna dair Azərbaycanla Türkmənistan arasında tam razılıq əldə olunmayıb.

# "Ərəb baharı"nın silahı - terror

## Terror artıq müsəlman dünyasında əsas təsirli silaha çevrilib

**Ötən həftə sonu Yaxın Şərq və Şimali Afrikanın əsas paytaxtları üçün terrorla yadda qalıb. Şənbə və bazar günləri Türkiyənin İstanbul, İraqın Bağdad, Yəmənin Ədən, Misirin Qahirə şəhərlərində baş verən terror partlayışları nəticəsində onlarla insan ölüb, yüzlərlə insan yaralanıb.**

**Dekabrın 10-da Türkiyənin İstanbul şəhərində baş vermiş terrorda ölənlərin sayı 44 nəfərə çatıb. Polisləri hədəfə alan iki partlayış nəticəsində yaralananların sayı 155 nəfərdir. Hadisə ilə əlaqədar 13 nəfər saxlanılıb. Hadisəni kürd separatçı terror təşkilatı (PKK) törədib.**

Şənbə günü Yəmənin cənubunda yerləşən Ədən şəhərində hərbi düşərgənin yaxınlığında terrorçu-kamikadzenin özünü partlatması nəticəsində 50 nəfər ölüb, 70 nəfər isə yaralanıb. Terror aktını İŞİD öz üzərinə götürüb.

Şənbə günü 3-cü terror aktı İraqın paytaxtı Bağdadda baş verib. Terror aktı nəticəsində 1 nəfər ölüb, 5 nəfər yaralanıb. Bazar günü Misirin paytaxtı Qahirədə qipti xristianların kilsəsində həyata keçirilən terror aktı nəticəsində 25 nəfər ölüb, 50 nəfərdən çox insanın yaralandığı haqda məlumat yayılıb.

Yuxarıdakı məlumatlar Yaxın Şərqin müsəlman ölkələrinin əsas şəhərlərinin "istirahət günü" statistikasıdır. Amma təbii ki, təkcə Bağdadda bir gündə 10 terror aktının baş verdiyi günü də unutmamışıq. İndi Yaxın Şərqdə marionet körfəz ərəb dövlətlərini çıxmaqla digər ölkələrdən heç bir terrordan qoruna bilmir. Təkcə son 18 ay ərzində Türkiyədə əsasən də Ankara və İstanbul şəhərlərində 17 qanlı terror aktı baş verib. Terror müsəlman ölkələrinin başı üzərində kabusa çevrilib. Artıq terror nəticəsində siyasi böhranlar baş verir, terror müharibələri başlayır, iqtisadi tənəzzül yaşanır, fərdlər deyil, bütöv ölkələr zərbə alır. Artıq Yaxın Şərqdə bir terror dövləti belə var.




Əlbəttə, indi kimsə deyə bilər ki, terror okeanın o tayına, Amerikaya gedib çıxır, terrorçular Parisdə qətliam törədir, Brüsseldə - NATO-nun mənzil qərargahının yerləşdiyi şəhərdə hava limanı partladırlar. Ancaq məsələ ondadır ki, terror Avropaya gedib çıxsa da, mərkəzi Yaxın Şərqdir, ən çox zərbəni də müsəlman ölkələri alır. Artıq Bağdadda terror aktları hadisədən çox statistika olaraq xatırlanır. İndi bu sıraya, Yəmən, Suriya, Liviya ilə yanaşı Misir, Türkiyə kimi sabitlik ölkələri də artıq təhlükə mənbəyinə çevrilir.

Yeri gəlmişkən, 10 il əvvələ qədər bu bölgədə ən çox müzakirə olunan mövzu sabitlik və ya demokratiya idi. Qərbin müsəlman dünyasında avtoritar rejimlərə sabitlik naminə dəstək verməsi əsas tənqid obyekti idi. O zaman demokratiya sabitliyin alternativi kimi xatırlanırdı. "Ərəb baharı" başlayanda da çoxları düşündü ki, artıq sabitlik erası başa çatır və avtoritar rejimlərin devrilməsindən sonra inqilabçı qüvvələr demokratiyaya keçid edəcəklər. Ancaq bilindiyi kimi, elə olmadı. Silahlı terror qrupları hakimiyyət mübarizəsində əsas qüvvə olaraq ortaya çıxdı. Bunun ən bariz örnəyi Suriyada Əsədə qarşı savaşan islamçıların elə keçirdikləri bölgədə yol kənarına yazıb vurduqları "Demokratiya haramdır" şüarı idi. Yəni avtoritar rejimlərin getməsi ərəb coğrafiyasına demokratiya deyil, xaos və terror müharibələri gətirdi. Yalnız Tunisdə islamçıların digər siyasi qüvvələrlə kompromisə getməsi nəticəsində *(burda Rəşid Qannuşinin böyük xidmətləri oldu - K.R)* ölkədə sabit siyasi sistem qurmaq mümkün oldu.

Ancaq digər ölkələrdə bir tərəfdə keçmiş rejim tərəfdarları, bir tərəfdə yeni islamçılar və üçüncü tərəfdə isə aralıq qüvvələr (liberallar, millətçilər, solçular və sair - K.R) arasında savaşlar dərinləşdi. Misir, Suriya kimi ölkələrdə keçmiş rejimlər özlərini qoruyub saxlamağa çalışsalar da, Yəmən və İraq kimi ölkələrdə yeni qüvvələr önə çıxdılar. Amma bütün bu ölkələrdə dəyişməyən yeganə şey terrordur. "Sabitlik oxu"ndan çıxan bütün müsəlman ölkələri terror təhdidi ilə üz-üzədir. Artıq terror münaqişə ölkələrinin sərhədlərini aşaraq Türkiyə kimi ölkələrə də yayılıb.

**Terror artıq müsəlman ölkələrində siyasi silaha çevrilib. Yerli qüvvələr, dövlətlər, o cümlədən dünya gücləri müsəlman ölkələrində terror silahından istifadə edir. Çünki yaranmış xaos durumu bunun üçün münbit şərait yaradır. Bundan qaçmaq üçünsə, münaqişələrə, yəni terrora şərait yaradan xaos vəziyyətinə son qoymaq lazımdır. Bu isə hələlik o qədər də real görünmür.**

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Terrora görə Türkiyəyə gedən turistlərin sayı azalıb

## Bəziləri tur-paketləri qaytarsa da, Bakıdakı əksər turizm şirkətlərində sakitlikdir

**Dekabrın 10-da Türkiyənin İstanbul şəhərində baş vermiş xain terror aktı nəticəsində ölənlərin sayı 44 nəfərə çatıb. "Beşiktaş Vodafone Arena" stadionunun yaxınlığında törədilmiş terror aktı nəticəsində xəsarət alanların sayı isə 155 nəfərdir.**

Türkiyədə bu cür terror hadisələri təəssüf ki, artıb. Belə olaylardan sonra isə bu ölkəyə, xüsusən də terror hadisəsi baş vermiş şəhərə getmək istəyənlərdə tərəddüdlər yaranır ki, bu da təbiidir. Əvvəlcədən bu şəhərə tur paket alanlar belə cərimə olunmalarına baxmayaraq çox zaman tur paketləri geri qaytarırlar. Təbii ki, bu da həmin turizm şirkətlərinin zərərinə olur.

Biz də İstanbulda baş verən terror hadisəsinə görə əvvəlcədən alınan tur paketlərin qaytarılıb- qaytarılmadığını öyrənmək üçün bir neçə turizm şirkəti ilə əlaqə saxladıq.

**"FlyTravel"** turizm şirkətinin direktoru Mamed Əliyev İstanbula olan tur paketləri qaytaranların olduğunu dedi: "İnsanların bəziləri qorxur və İstanbula əvvəlcədən aldıqları tur-paketləri gətirib qaytarırlar. Qaytaranda bildirirlər ki, son hadisəyə görə qorxublar və İstanbula getmək fikirlərini dəyişiblər. Artıq dünəndən bu proses başlayıb. Düzdür, tur-paketləri qaytaranlar elə də çox deyil. Tur paketlərin qaytarılması bizim zərərimizədir. Çünki biz onları qaytaranda cərimə ödəməli oluruq. Buna görə də qazancımız olmur".



**"Sky Travel"**in meneceri Tərlan Cəbiyev isə İstanbula olan tur paketləri qaytaranların olmadığını dedi: "Hələ ki kimsə gəlib deməyib ki, biz İstanbuldakı terror hadisəsindən qorxub tur paketi qaytarırıq. Bəlkə də irəlidəki günlərdə olacaq. Ancaq hazırda bu barədə heç kim bizə müraciət etməyib".

**"VİP Travel"**və **"SW Traveldən"** də İstanbula olan tur paketləri qaytaranların olmadığını dedilər.

❑ **Günel MANAFLI**

# Sənədli pornofilm istehsalı



**Samir SARI**

**Dünən DTX sədri Mədət Quliyev yaxın günlərdə tutulmuş şəxslərdən bəhs edərkən deyib ki, bu, qalmaqallı məsələdir: "Müəyyən vəzifəli adamlar, onların övladları ilə bağlı qeyri-qanuni videoçəkilişlər aparıblar və bununla əlaqədar pul tələb ediblər".**

Söhbət cələklənmiş qəzet-sayt rəhbərlərindən gedir. Məhz onlar müəyyən vəzifəli adamları və onların övladlarını pornokasetlə şantaj edirmişlər.

Hələlik o "müəyyən vəzifəli adamlar"ın adları müəyyən deyil. Daha doğrusu, onların adlarını bir özləri, bir də müəyyən adamlar bilir, biz bilmirik. Güman ki, bilməyəcəyik. Ya da birini biləcəyik, beşini bilə bilməyəcəyik.

Adətən elə olur, zəhmət çəkib, tər tökub filmə çəkilən oğlanlar sonradan ekran əsərinin, türkün sözü, vizyona çıxmamasından ötrü bir ətək pul-paradan keçirlər. İndiyə qədər biz o kadrları görməmişiksə, o "sənət əsərləri"nin etibarlı əllərə düşməsi ilə məsələ bitmiş sayılır.

Hərçənd çox maraqlıydı. Həm o "müəyyən adamlar"ın adları, həm də onların övladlarının isimləri, eləcə də onların çəkiliş meydançasındakı performansları oxucu-tamaşaçı kütləsi üçün geniş maraq doğurur.

Hətta bu kimi "filmlər"in həvəskarları kadrlara baxdıqdan sonra "aktyorlar" təvazökarcasına "rolumun öhdəsindən nə dərəcədə gəldiyimi qoy tamaşaçılar desin" kimi ifadələr işlədə bilərdilər. Aləm olardı.

Əslində indiki zamanda tam yeridir. Mağıl, gündəm dəyişərdi, camaat qazan, işığın, suyun bahalaşmasını *(daha dəqiqi, onların satış qiymətlərinin diffensasiya edilməsini)* müzakirə etməkdənsə, "müəyyən adamlar"ın özlərinin və övladlarının seksual xarakterli hərəkətlərini müzakirə edərdilər.

Əvvəllər belə kasetlər, disklər yayılanda ölkədə vay-nöfsə qopurdu ki, bütün bunlar gündəmi dəyişmək üçündür. Bax, indi yeri gəlib, amma gündəmi dəyişmək istəyən yoxdur.

Yeri gəlmişkən, əvvəllər bu cür çəkilişlərdə iştirak edən jurnalistlərin videokadrlarının yayılması halları olurdu. Bir də görürdük, bay, lentlər gündəmə bomba kimi düşüb, internet resursları dağılır, ictimaiyyətin fəal kəsimi yalnız bu hadisədən danışır.

Özü də o çəkilişlərin çoxu heç standarta uyğun deyildi, lentin bədii səviyyəsi də aşağıydı, "aktyor oyunu" da zəif idi, üstəlik, onların ictimai-siyasi statusu orta yerdəydi.

İndikilər isə, belə çıxır ki, yekə və pullu adamlardır. Hər halda onların şalvarsız çəkildiyi filmlər daha maraqlı olar.

Bir də aydın olur ki, bu iş üstündə həbs olunan "jurnalistlər" dolanışığın yolunu tapıblarmış. İllərlə orda-burda çəkiliş aparan, süjetlər hazırlayan, sənədli filmlər çəkən həmkarlarımız var, əllərində ştativdən başqa bir şey yoxdur, amma bunlar öz sənətləri ilə 3 villanı yan-yana tikdirəcək qədər çox qonorar-filan qazanırmışlar. *(Bu yerdə qədirbilən xalqımız adətən "bacarana baş qurban" deyə bir ifadə işlədir).*

Bu, ilk hadisə deyil. O vaxt Hacı Məmmədovun bandası ifşa olunanda da polkovnikin videotekası üzə çıxmışdı. Onda da "müəyyən adamlar" çox həyəcanlanmışdılar. "Qarabulaq" adlanan ailəvi istirahət mərkəzinə gedib-gələn məmurlar əməlli-başlı özlərini batırmışdılar. Çünki çoxu ora ailəvi getməmişdi, müəyyən sənətçilərlə gedənlər də olmuşdu, ona görə də Hacının naməlum operatorları tərəfindən qeyri-münasib vəziyyətdə lentə alınmalarından narahat idilər. İstənilən birini "sənin də videon var" deyə böyüzm eləmək mümkün idi.

O vaxt bu işin təhqiqatı sonradan ləğv edilmiş MTN-in yüksək rütbəli zabitlərinin kurasiyasında idi. Onlar da güman ki, təhqiq etdilər, araşdırdılar, axırda bu qənaətə gəldilər ki, belə çəkilişlər daha mənfəətlidir, hətta milli təhlükəsizlikdən daha əfzəl fəaliyyət istiqamətidir.

İndi elə çıxmasın ki, bu "qeyri-qanuni çəkilişlər" aparan qrupun ifşası başqalarının qolunu soyudub, "sənət"dən getmələrinə səbəb olub. Əslə. Sizi əmin edirəm ki, bu saat Yaponiyadan videokamera yerləşdirilmiş saat, qələm, düymə, eynək gətirtmək istəyən və "sənədli pornofilm" istehsalını gücləndirmək niyyəti daşıyan adamlar var.

**Çünki gəlirli işdir. Bizim Məhəmməd Türkmən də qoşulub Hüseyn Əzizoğluna, gedib 50 saniyəlik vinelər çəkir...**



# Gətir-götür siyasəti

Zamin HACI
zaminhaci@gmail.com

"- Ağsaqqal, bəlkə nəyəsə ehtiyacınız var?
- Yox, ay bala, sağ olun, hökumətin sayəsində ehtiyacımız çoxdur"
**(AzTV-dən olmuş dialoq)**

**Mobil rabitə şirkətindən son bir ayda düz 3 dəfə eyni mesajı almışam: təklif edirlər ki, telefonuma çağrı melodiyası olaraq mahnılar yükləyim. Əsas məsələ isə bu mahnıların adlarıdır, düzü, məzmunundan heç bir xəbərim yoxdur, adları bəs elədi. Çünki mahnının biri "Saçlarını yol" adlanır, o biri "Canın çıxsın", üçüncüsü isə bu prosedurun məntiqi nəticəsi olaraq "Su kimi gözlərin" mahnısıdır. (Bunları uyğun olaraq Damla, İsmayıl və İntizar adlı manıslar oxuyurmuş, düzü, onlar haqda da heç bir anlayışım yoxdur, üzrlü saysınlar).**

Maraqlı təkliflərdir. Ümid edirəm operator çoxdandır telefona balans yükləmədiyimə görə bu işarələri vurmur. Kasıbçılığın üzü qara olsun, söz verirəm, əlimə pul düşən kimi sizə babat balans yükləyib aramızda kəskinləşən münasibəti balanslaşdıracağam. Mesajları dayandırın, zəhmət deyilsə. Hesab edin, artıq canım çıxdı.

Ümumiyyətlə, indiki ağır, böhranlı günlərdə gərək bir-birimizi yola verək, millətin xətrinə dəyməyək. Bunlar yeyib doyublar, başqası gəlsə nə olacaq? Əsas sabitlikdir, o da var. Misal üçün, hazırda ölkənin bir çox yerlərində yeni marketlər şəbəkəsi yaranır, bunun konsepsiyasının da analoqu yoxdur, çünki heç bir qazanc güdülmür. Marketlərin adı "Ehtiyacın yoxsa, gətir, Ehtiyacın varsa, götür" şəklindədir. Başqa ərazilərdə millətlər krizis yarananda hökuməti dəyişdirir, biz də belə yardımlaşma ilə vəziyyətdən çıxırıq, neyləyə bilərik, başını qaldıranı tutub türməyə salırlar, dünən türmə idarəsinin rəisi muştuluq verib, deyir üstəlik 6 yeni zindan tikiləcəkdir, səsinizi kəsin.

Həmin bu "Gətir, götür" şəbəkəsinin mahiyyəti belədir ki, ərazinin deputatı, icra başçısı, naziri və sairə hökumət adamları xoşuna gəlməyəndə aparıb qoyursan dükana, təzəsini götürürsən. Əlbəttə, bunlar şit zarafat idi, inanmayın. Söhbət geyilmiş kurtkadan, şalvardan-zaddan gedir. Axı bizim millət belə saxta pafosdan ötrü əldən gedir. Qoyasan elə bir-birinə köhnə paltarlarını sırıyalar. Özü də bunu adətən elə adamlar edir ki, onların üzündən millət illər boyu paltar tapmır. Əgər sənə rəhbərlik edənlər "birinci əl"dirsə, dünyada analoqu olmayandırsa, sənin "ikinci əl" paltarlara ehtiyacın yaranması, onun-bunun süfrəsinin artığına möhtac olmağın qaçılmazdır. Hakimiyyətini tez-tez dəyişmək imkanını itirənlərin əyin-başı da dəyişilmir. Avtoritarizm və paltar, geyim-kecim arasında əlaqə şübhəsizdir. Misal üçün, bütün avtoritar rejimlərdə uniformalar, xüsusi hərbi geyimlər "dəbdə" olur. Hamını eyni cür geyindirib-kecindirib küçəyə, obyektə, məktəbə buraxırlar.

**"Ehtiyacın yoxsa, gətir, Ehtiyacın varsa, götür" şəbəkəsinin adını qafiyəli qoyublar, çünki uca millətimiz çox şairanədir. Bizdə prokurorlar, nazirlər, polislər, hətta şairlər özü də şeir yazır. Seçilmiş əsərlərinin 10 cildliyini buraxmayan şairə pis gözlə baxırlar. Özü də qabaqlar şairlərimiz "Azərbaycan, yatmış vulkan səninləyəm!", "Qoy millətdə ruh yaşasın", "Bircə ondan razıyam ki özümdən narazıyam" şeirləri yazırdısa, indi "Ehtiyacın yoxsa, gətir, Ehtiyacın varsa, götür", "Üzür manat, gözəldir həyat, yaşasın YAP", "Ət baha, yağ baha, Hi-ha-ha, Hi-ha-ha" kimi sənət əsərləri yaradırıq. Bu da milli poeziyamızın xalqa yaxınlığının göstəricisidir. Sözgəlişi, "Hər kəs yüz il yaşamasa, Günah onun özündədir" kimi gözəl misranın təzə nəfəs almasına, həyata qaytarılmasına ehtiyac yaranıb. Əsl indiki dövrün poeziyasıdır. Ver deputatlara, tribunadan oxusunlar. Dərman almağa pulu olmayıb apteklərin qabağında can verən ağsaqqal və ağbirçəklərimiz üçün də bu şeir yaxşı təsəllidir.**



# Ankaradan Kremlə Azərbaycan ismarışı - düyünü açmaq zamanı...

## Türkiyə baş nazirinin Moskva səfərində "Qarabağ izi", bu - işğalçıya da mesajdır; Ermənistanla ortaq ordu ilə bağlı Rusiya rəsmisindən ilginc etiraf; Ankara-Moskva anlaşmalarına erməni "kolu" o vaxtadək əngəl olacaq ki...

**Türkiyə baş naziri Binəli Yıldırımın son Rusiya səfəri iki regional supergüc arasında münasibətlərin yeni fazaya keçdiyinin növbəti təzahürü oldu. Bir sıra təhlilçilər həmin səfəri kifayət qədər uğurlu hesab edirlər. Ziyarətin Azərbaycanla bağlı önəmi isə səfər çərçivəsində Dağlıq Qarabağ məsələsinin də diqqətdə saxlanmasıdır.**

"Türkiyə baş nazirinin Rusiya ziyarəti zamanı iki ölkə Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə səylərin artırılması barədə razılığa gəliblər". Bu barədə Türkiyə-Rusiya parlamentlərarası Dostluq Qrupunun rəhbəri Rəcai Bərbər deyib. Onun sözlərinə görə, əvvəldən Qarabağ münaqişəsi təkcə Azərbaycanın deyil, həm də Türkiyənin problemidir.

"Əslində Ermənistan da bu problemin həllini istəyir, çünki Qarabağ münaqişəsi Ermənistanı xarici dünyadan təcrid edir və bu da Ermənistanın iqtisadiyyatına güclü təsir göstərir. Bu problemin həlli, şübhəsiz, regionda sabitliyə və vətəndaşlarının rifahının yüksəlməsinə gətirib çıxaracaq", - Dostluq Qrupu rəhbəri bildirib.

Onun dediyinə görə, Türkiyə, məsələn, Gürcüstanla olduğu kimi, Ermənistanla da yaxşı münasibətlər qurmaq niyyətindədir. Lakin R.Bərbər əlavə edib ki, Ankara ilə İrəvan arasında yaxşı münasibətlər ermənilərin işğal etdikləri Azərbaycan ərazilərinin azad olunmasında sonra mümkündür.

***

Bu isə artıq Rusiyanın məsələsidir. Ona görə ki, bizim problemimiz nə qədər Türkiyənin problemidirsə, bir o qədər işğal məsələsi də ermənilərlə yanaşı, Moskvanın ortaq problemidir. Şübhəsiz ki, Moskva və Ankara arasında yaxınlaşma Qarabağ ixtilafının dinc həlli üçün müəyyən ümidlər yaradır. Lakin o da var ki, Türkiyə və Rusiya bir-biri ilə müxtəlif sahələr üzrə nə qədər yaxın olsa da, iqtisadi-ticari, energetik tellərlə bağlı olsa da, gerçək belədir ki, onlar hələ ki strateji tərəfdaşlıqdan o yana keçə və Kremlin arzuladığı kimi siyasi, hərbi müttəfiqlərə çevrilə bilmir. Çünki Türkiyə dünyanın ən iri hərbi-siyasi bloku olan və Rusiyanın ən çox çəkindiyi NATO-nun üzvü olaraq qalır. Özü də o, alyansın ən güclü üzvlərindən biri, eyni zamanda NATO-nun cənub-şərq cinahının əsas dövlətidir.

Bunu əlbəttə ki, Kremldə də yaxşı anlayırlar. Yəni, orada yaxşı fərqindədirlər ki, Ankara-Moskva hərbi, hətta siyasi əməkdaşlığı bəlli bir cizgiyədək mümkündür. Ondan sonra ya gərək Türkiyə NATO-dan ayrıla, ya da Rusiya NATO ilə dostlaşa. Bu xüsusda Rusiya Federasiya Şurasının İnformasiya siyasəti komissiyasının sədri Aleksey Puşkovun Rusiya-Ermənistan birləşmiş qoşun qruplaşmasının yaradılması haqda APA-ya açıqlaması diqqət çəkir.

Həmin qruplaşmanın Azərbaycana heç bir problem yaratmadığını deyən Rusiyalı siyasətçi bəlkə heç özü də istəmədən Türkiyə amili ilə bağlı ilginc bir etirafda bulunub. **Sitat:** "Ermənistan Rusiyanın hərbi müttəfiqidir və o, NATO üzvü olan ölkə ilə həmsərhəddir. Ona görə də hərbi müttəfiq münasibətləri şərtlərində birləşmiş qoşun qruplaşmasının yaradılması haqqında saziş imzalamaq tamamilə məntiqə uyğundur. Məsələ ondadır ki, bu saziş Azərbaycana problem yaradırmı? Fikrimcə, heç bir problem yaratmır. Çünki Azərbaycan Rusiyanın ən yaxın strateji tərəfdaşdır".

**Onun zənnincə, Rusiyanın regionda öz nüfuz dairəsini genişləndirməsi Azərbaycanın əleyhinə ola bilməz:** "Moskva Bakı və İrəvan arasında balansı gözləmək barədə özünə hesabat verir. Məncə, Moskva bu balansı pozmur və heç vaxt da pozmayacaq. Azərbaycan Rusiyanın strateji tərəfdaşıdır. Ermənistanla isə həm Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, həm də Avrasiya İttifaqında əməkdaşlıq edirik. Fikrimcə, Bakı bu məqamı yaxşı başa düşür. Mən dəfələrlə Bakıda olmuşam, Azərbaycan rəhbərliyi ilə görüşmüşəm. Rusiyanın siyasətində Azərbaycanın narahatlığına səbəb olacaq heç nə görmürəm".

Diqqət edildisə, Puşkov Ermənistanla Rusiyanın ortaq ordusunun yaradılmasında əsas hədəf kimi işğalçı ölkənin NATO üzvü Türkiyə ilə həmsərhəd olmasını göstərir. Belə çıxır, Moskva Türkiyə sarıdan özünə qarşı hansısa təhlükə gözləyir. Yaxud ən azından, Ankaraya elə də etibar eləmir - hər nə qədər onunla geniş iqtisadi-ticari iş birliyində olsa da.

***

Beləcə, əslində Rusiya və Türkiyə bölgədə "mehriban düşmənlər" kimi qalmaqdadır. Doğrudur, qardaş ölkə hələ ki nə Rusiyanın onun sərhədləri yaxınlığında "İsgəndər M"lər yerləşdirməsinə, nə də işğalçı ölkə ilə ortaq hərbi qruplaşma yaratmasına reaksiya verməyib, etiraz bildirməyib - halbuki, analoji raket sistemlərinin Kaliningradda yerləşdirilməsi NATO sərt reaksiya doğurub.

İstisna deyil ki, Türkiyə Rusiya ilə münasibətlərin mühüm dönəmində, Suriya böhranı ilə bağlı dönüş ərəfəsində onu izafi qıcıqlandırmaq istəmir. Ancaq nə baş verdiyinin də Ankara şübhəsiz ki, fərqindədir. Odur ki, Türkiyə də regionda öz əsas strateji müttəfiqi Azərbaycanla birgə öz oyununu davam etdirməli, hərbi təlimlər də daxil, ortaq projelərini həyata keçirməli, iki işğalçı dövlət - Rusiya və Ermənistanla bağlı bu qəbildən gəlişmələrə və çağınşlara Bakı ilə bəhəm adekvat cavab verməlidir.

Yeri gəlmişkən, əksər hərbi analitiklərə görə, iki qardaş ölkə arasında hərbi müttəfiqlik sazişi imzalamağın vaxtı çatıb. Hər necə olmasa, hərənin öz milli-dövlət maraqları. Rusiya öz maraqlarından vaz keçmirsə, Türkiyə və Azərbaycan niyə keçməlidir ki?

Zatən, vaz keçməyə lüzum da yox. Yetər ki, Rusiya bölgədə Ermənistan da daxil, ikitərəfli və çoxtərəfli əlaqələrin və əməkdaşlığın inkişafına əngəl yaradan Dağlıq Qarabağ məsələsinin həllində nəhayət, obyektiv mövqe tutsun, real addımlar atsın, işğal altındakı ərazilərlə bağlı Ermənistana təzyiqlər eləsin. Əks halda, Rusiya heç vaxt Türkiyə və Azərbaycanı qazana bilməyəcək.

**Ankaranın Qarabağla bağlı yürütdüyü siyasətin mahiyyəti də budur - hansını ki, Türkiyə yetkililəri prezident Rəcəb Tayib Ərdoğan başda olmaqla son vaxtlar kifayət qədər açıq şəkildə ortaya qoymaqdadırlar. Binəli Yıldırımın Moskva səfəri də istisna olmadı. Bütün bunlar Kremlə aydın bir mesaj, ismarışdır ki, seçimini eləsin: bölgədə kiminlə müttəfiq olmaq və möhkəmlənmək istəyir - Rusiyanın ucqar quberniyası Ermənistanla, yoxsa bölgənin həlledici dövlətləri olan Türkiyə və Azərbaycanla?**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 277 (6598) 13 dekabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# İşğalçı ölkə başçısını Talışa gətirən səbəblər

## Vasitəçilər Serj Sərkisyanın bu həyasızlığına da kor oldular; ordumuzun düşmən ölkənin rəhbərini vurmağa tam haqqı var idi; **politoloq:** “Artıq ən optimal variant aprel hadisələrində olduğu kimi, ərazilərimizdə antiterror əməliyyatlarını mütəmadi olaraq təkrarlamaqdır”

**Ermənistan prezidenti Serj Sərkisyan Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə dekabrın 8-dən başlanan qanunsuz səfərini başa vuraraq İrəvana dönüb. Erməni prezident bu hərəkəti ilə növbəti dəfə heç bir beynəlxalq qanunlara məhəl qoymadığını, BMT Təhlükəsizlik Şurasının qətnamələrindən tutmuş Avropanın çeşidli qurumlarının çağırış və tələblərinə qədər bütün təşəbbüslərə tüpürdüyünü nümayiş etdirdi.**







**Özü də bu səfər məqsədli şəkildə məhz Almaniyanın Hamburq şəhərində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bir araya gətirilməsi, danışıqların 3+2 formatda keçirilməsi ilə bağlı həmsədrlərin cəhdlər göstərdiyi günlərə salındı.** Ancaq ABŞ, Rusiya və Fransa XİN başçılarının Hamburq bəyanatında danışıqları davam etdirmək çağırışı edilərkən həm Azərbaycan prezidenti, həm də XİN başçısının danışıqlara sadiq olduqları barədə mövqelərinə rəğmən, Ermənistan rəhbərliyinin pozucu, təxribatçı davranışlarına toxunulmadı. Həmsədrlərin özlərini karlığa, korluğa və lallığa vurması isə işğalçı ölkənin rəhbərliyini daha da azğın davranış sərgiləməyə həvəsləndirir.

**Təsəvvür edin, həmsədrlər tərəfləri hərbi toqquşmalardan qaçmağa çağırır, amma Sərkisyan Dağlıq Qarabağ separatçılarının başçısı Bako Saakyan, Ermənistanın müdafiə naziri, Silahlı Qüvvələrin Baş Qərargahının rəisi, separatçı ordunun komandanlarının müşayiəti ilə işğal altındakı Ağdərənin Madagiz və Talış kəndləri yaxınlığındakı ön xəttə qədər gəlməyə cəsarət edir.** Hansı ki, Talış kəndi tamamilə Azərbaycan ordusunun nəzarəti altındadır və hər an böyük savaş ola bilərdi. Üstəlik, Sərkisyan Xankəndinin baş meydanında keçirilən tədbirdə hərbi qulluqçulara müxtəlif mükafatlar, o cümlədən avtomobillər təqdim edib.

Bəzi müşahidəçilər hesab edir ki, Sərkisyanın olduğu mövqe hədəfə alınsa, ən azı o istiqamətə zərbələr endirilsə, hər hansı bir qüvvə Azərbaycanın bu addımına etiraz edə bilməzdi. Rəsmi Bakı onun tanınmış sərhədlərini qanunsuz pozan cinayətkar prezidentin hədəfə alındığını dünya birliyinə bəyan edə, bununla da Ermənistanı növbəti həyasızlıqlardan çəkindirməklə bərabər, BMT qətnamələrinin yerinə yetirilməsi istiqamətində cəhdlərin göstərilməsinə təkan verə bilərdi.

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov** da bildirdi ki, Ermənistanın yeni müdafiə naziri Vigen Sarkisyan və cinayətkar prezidenti ATƏT-in Minsk Qrupunu düşdükləri acınacaqlı durumdan xilas etmək üçün vəziyyəti maksimum gərginləşdirməklə bağlı öz havadarlarından göstəriş alıblar: “Yəni, əgər ilin sonuna kimi həmsədrlər iki prezidenti bir araya gətirə bilməsələr, faktiki olaraq özlərinin gücsüzlüyünü təsdiq etmiş olacaqlar. Ona görə də ermənilər bir vəfa borcu olaraq həmsədrlərin xahişinin reallaşması üçün ciddi hərəkətə keçiblər. Hələ ola bilsin ki, yaxın günlərdə apreldə itirilmiş istiqamətlərdə biz bəzi lokal toqquşmaların şahidi olaq. Həm də Ermənistanın məhz Qarabağ ərazisində fitnəkarlığının sayı daha da artacaq. Onlara da bu imkanı birgə Rusiya-Ermənistan hərbi birləşməsinin yaradılması və fəaliyyətə başlaması haqqında sənədin həm rəsmi Moskva, həm də İrəvan tərəfindən təsdiqlənməsi faktı yaradır. Ona görə də biz qarşıda istənilən ağır və bəlkə də bizə maddi və mənəvi itkilər hesabına başa gələ biləcək təxribatlara və yaramazlıqlara qarşı hazır olmalıyıq”.

**Hərbi ekspert deyir ki, bizimkilər elə Sərkisyan Qarabağda olduğu vaxt məsələni birdəfəlik həll edə bilərdilər:** “Amma nədənsə ermənilərin arxayınçılığı məndə şübhə yaradır. Şəxsən mən ümumi vəziyyətdən çox narahatam və narahatlığım da elə-belə adi məlumatlara deyil, cəbhə xəttində son vaxtlar baş verən ciddi hadisələrə görədir. Həqiqətən də cəbhədə zahirən nisbi sakitlik ab-havası hökm sürsə də, əslində çox ciddi gərginlik və qarşıdurma mövcuddur. Yəqin ola bilsin bizim bilmədiyimiz bəzi ciddi məsələ var”.

**Ü.Cəfərov hesab edir ki, bizim ordumuz Sərkisyanın olduğu mövqeləri hədəfə almalıydı:** “Gərək vuraydılar. Ondan sonra nə qədər istəyirlər çığırardılar. Adama sual verərlər ki, sənin başqasının beynəlxalq müstəvidə tanınan ərazilərində nə işin var? Ona görə də biz gərək belə şeyləri onlara eşitdirək ki, vəziyyəti başa düşsünlər və özlərini yığışdırsınlar. Necə ki, Xocalı aeroportu ilə bağlı Sərkisyan lotuluq edirdi, oraya usan birinci sərnişin olacağını deyirdi. Amma Azərbaycanın xəbərdarlığından sonra qorxusundan bildi ki, onu vurub salacaqlar, daha sonra məsələyə nöqtə qoydu”.

Yeri gəlmişkən, Modern.az yazıb ki, 2008-ci ildən prezident postunu tutan Serj Sərkisyan 24-cü dəfədir Dağlıq Qarabağa qanunsuz səfər edir. Əgər ATƏT-in Minsk Qrupunun həmsədrləri bu 24 səfərin birinə də etiraz etməyiblərsə, o halda onların vasitəçiliyinə olan ümidləri birdəfəlik dəfn etmək daha doğru olardı.

**Politoloq Arzu Nağıyev** isə bildirdi ki, Ermənistan hər necə olur-olsun Qarabağ münaqişəsinin həllində maraqlı deyil: “Daha doğrusu, işğalçı ölkə hazırki status-kvonu saxlamağa çalışır. Bunun əsas səbəblərindən biri separatçı rejimə Sərkisyan tərəfindən müstəqillik söz verilməsidir. Əks təqdirdə Sərkisyan hətta fiziki məhvindən də qorxur. Yəni Dağlıq Qarabağda səhra komandiri olan bir cinayətkar kimi sabah öz əməlləri qarşısında cavab verə bilər, ancaq nə qədər ki, prezident kürsüsündədir, bu, mümkün deyil”.

**Ekspert hesab edir ki, Hamburq görüşünün baş tutmamasının əsas səbəblərindən biri Ermənistanın bu görüşə hazır olmamasıdır:** “Çünki Azərbaycan tərəfi Madrid prinsiplərində, Kazan protokollarında, Sankt-Peterburq və Vyana görüşlərində razılaşdırılan bütün maddələrə cavab verib və əks tərəfin konkret cavabını gözləyir. Məhz bu cavab olmayanda isə görüş naminə görüşün keçirilməsi bizim tərəfi də qane etmir. Bundan başqa Ermənistan elə düşünür ki, Trampın komandası tərəfindən qlobal xarici siyasətdə guya müəyyən korrektələr edilə bilər və bu, Qarabağ münaqişəsinə də təsir edə bilər. Məhz buna görə də Ermənistan gözləmə mövqeyindədir”.

**A.Nağıyev burada Rusiya təsirinin olduğunu da istisna etmir:** “Xalq diplomatiyası ideyası da təbii ki, Rusiyaya məxsusdur, yəni Qərbin tələbi ilə SSRİ-nin varisi kimi Rusiya o vaxt əmələ gələn münaqişə ocaqlarını, həmçinin Dağlıq Qarabağ münaqişəsini də həll etməlidir. Türkiyə-Rusiya yaxınlaşması da Ermənistanı qıcıqlandırır. Təbii ki, Moskva Qarabağ məsələsini həll etməsə, bu, böyük problemlərlə nəticələnə bilər. Bundan başqa, Rusiya bütün böyük layihələrdən təcrid oluna bilər. Məhz bunu başa düşən Putin indi bu istiqamətdə müvafiq addımlar atır və münaqişənin həllini xarici siyasətdə prioritet kimi qəbul edir. Ancaq unutmaq lazım deyil ki, Rusiya və Ermənistan KTMT-də bir cəbhədədir. Bir sözlə, Moskva hazırda iki istiqamətli siyasət yürüdür. Lakin bütün bunlar Azərbaycan olaraq bizim xeyrimizə deyil, çünki vaxt dayanmır, münaqişənin uzanması isə təhlükəsizliyə təhdid kimi bizə bir çox layihələrin həyata keçirilməsinə ciddi mane törədir. Danışıqlara tam xitam vermək də düzgün addım olmazdı, ən azından bunu dünya ictimaiyyəti başqa cür yozar. Düşünürəm ki, artıq ən optimal variant aprel hadisələrində olduğu kimi, ərazilərimizdə antiterror əməliyyatlarını mütəmadi olaraq təkrarlamaqdır”.

İş o yerə gəlib çatıb ki, tanınmış alman eksperti, Xarici Siyasət üzrə Alman Cəmiyyətində (DGAP - Almaniya XİN-i dəstəkləyən “beyin mərkəzi” sayılır) Rusiya və Şərqi Avropa istiqamətini kurasiya edən Ştefan Mayster də həmsədrlərin fəaliyyətinin fiaskoya uğradığını söyləyib. Onun sözlərinə görə, ATƏT daha onun üzərinə qoyulan vəzifələrə uyğun gəlmir və təşkilatda təcili islahatlar aparılmalıdır. “ATƏT-in Minsk Qrupunun himayəsi altında artıq 20 ildən çoxdur ki, sülh danışıqları aparılır. Ancaq hələ də nəticə yoxdur. Bu, ATƏT-ə inamı sarsıdır. Dialoq özünühədəf ola bilməz” - analitik əlavə edib.

**Əslində həmsədrlər özləri də bilirlər ki, onların fəaliyyəti münaqişəsinin həllinə yox, maksimum uzadılmasına yönəlib. Bu arada ATƏT-in Minsk Qrupundakı yeni fransalı həmsədr Stefan Viskonti Azərbaycan prezidenti İlham Əliyevin qəbulunda olub. Bir müddət sonra amerikalı həmsədri də yenisi əvəzləyəcək, ancaq bu əvəzləmələr heç nəyi dəyişməyəcək. Çünki diplomatların təmsil olunduğu ölkələr Qarabağ məsələsinin ədalətli həllində maraqlı deyillər.**

YENİ MÜSAVAT
N 277 (6598) 13 dekabr 2016

# Hökumətin kredit axtarışı - borclarımız artır

## 2017-ci ildə dövlət büdcəsindən xarici borcların qaytarılmasına təxminən 1 milyard dollar ayrılmalıdır

**Hökumətin kredit axtarışı davam edir. Ekspertlər bildirirlər ki, Mərkəzi Bankın valyuta ehtiyatını 4 milyard dollardan aşağı salmamasının bir səbəbi də bununla bağlıdır. Çünki xarici təşkilatlardan kredit alınarkən Mərkəzi Bankın rezervlərinə baxılır.**

**Ekspert Qubad İbadoğlu**nun sözlərinə görə, Asiya İnkişaf Bankının ölkəmizlə son zamanlar artan sıx kredit əməkdaşlığından sonra Azərbaycan bu bankın Çin və Hindistandan sonra üçüncü əsas tərəfdaşına çevrilib: “Bunun başlıca səbəbi Asiya İnkişaf Bankının Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi texniki dəstək və islahatlar paketi təqdim etmədən qeydsiz-şərtsiz borc verməsidir. Ola bilər ki, adını sadaladığımız banklar da yaxın zamanlarda Azərbaycana kreditlər ayırsın. Əgər həqiqətən də Azərbaycan donor dövlətə çevrilibsə, onda nədən daxili ehtiyaclarımızı və kəsirlərimizi kreditlər hesabına ödəyirik. Hesab edirəm ki, milli iqtisadiyyatın qarşısında duran vacib vəzifə qeyri-neft sektoruna xaricdənkredit vəsaitləri deyil, birbaşa sərmayələr cəlb etməkdir, çünki investisiyalar borc öhdəliyi yaratmır, əksinə yeni və əlavə dəyər formalaşdıraraq iqtisadi inkişafa xidmət edir. Uzun illər artan neft gəlirləri hesabına baş verən iqtisadi böyümədən geninə-boluna bəhrələnən hakim zümrə və onların yaxınları, son zamanlar iqtisadi kiçilmədən yaranan



zərəri orta və kasıb təqəbənin hesabına örtmək istəyir. Hələ bu azmış kimi külli miqdarda borclanmaya getməklə də onun da qaytarılması məsuliyyətini gənc və gələcək nəsillərin üzərinə qoyur”.

**Ekspert Rövşən Ağayev** isə qeyd edib ki, Mərkəzi Bankın xarici valyuta öhdəliklərinə bağlı investisiya layihələri və xarici borcların qaytarılması üçün valyuta bazarından kənarda vəsait axtarmasının səbəbi odur ki, 2017-2018-ci illər hökumətin özünün və dövlət sektoruna aid şirkətlərin kifayət qədər böyük həcmdə valyutaya ehtuyac var: “2016-cı ildə büdcədən dövlət borclarının qaytarılması üçün nəzərdə tutulan vəsaitin 85 faizi xarici borc ödənişləri ilə bağlı idi. Amma 2017-ci ildə büdcənin borca xidmət xərclərindən 96 faizi xarici borcların qaytarılması ilə bağlıdır. 2017-ci ildə dövlət büdcəsindən xarici borcların qaytarılmasına təxminən 1 milyard dollar ayrılmalıdır. Bu ölkənin səhiyyə büdcəsindən 2,1 dəfə çoxdur.Yeri gəlmişkən, yəqin dünyada öz büdcəsinin təxminən 10 faizini borcun qaytarılmasına xərcləyən ölkələr axtarsanız, belə nümunələrlə çox az qarşılaşarsınız və onlardan biri də biz olarıq. Əlavə olaraq, SOCAR-ın 2017-ci ildə 600 milyon dollara yaxın xarici borc qaytarmaq öhdəliyi var. Nəhayət, 2018-ci ildə yekunlaşmalı olan TANAP-da Azərbaycanın öhdəliyi 8 milyard dolara yaxın qiymətləndirilir. 2015-2016-da dövlət büdcəsi və Neft Fondu vasitəsilə bu öhdəliyin 2 milyard dollara yaxını artıq maliyyələşdirilib. Bu günlərdə Asiya İnkişaf Bankı layihə üçün 1 milyard dollar kredit xətti açdı. 2017-ci ildə dövlət büdcəsi və Neft Fondu vasitəsilə təxminən 600 milyon dollar ayrılacaq. Yenə də yaxın 2 il üçün ən azı 4-4,5 milyard dollara ehtiyac var. Bu isə orta hesabla 2017-2018-ci illər üçün ildə TANAP üçün ən azı 2-2,5 milyard dollar valyuta vəsaiti tapılmasına ehtiyacın olduğunu göstərir”.

**Ekspertin sözlərinə görə, bankların və qeyri-maliyyə şirkətlərinin dövlət zəamnəti ilə alınmayan, qaytarılmalı olan borc öhdəliklərini nəzərə alanda, qarşıdakı dövr üçün Mərkəzi Bankın narahatlığını anlamaq olar:** “Heyif ki, ölkənin beynəlxalq investisiya mövqeyinə dair məlumatlar açıqlanmır, o halda ölkənin xarici aktivləri və öhdəliklərinin nisbətini aydın görmək, yaxın dövrü daha rahatlıqla proqnozlaşdırmaq olardı”.

❑ RÖYA

# Siyasətçilər astroloji proqnozlara inanırmı...

**Hər yeni il yaxınlaşdıqda, ilin hansı heyvan üzərində təhvil olması məsələsi də müzakirə mövzusuna çevrilir. Mayya təqviminə görə, 2017-ci il Xoruz ili olacaq. Müxtəlif mənbələrdə xoruz ilinin xüsusiyyətləri, ayrı-ayrı bürclərə təsirinə aid məlumatlar, astroloji proqnozlar yer alır. Gələn ilin dünya və ayrı-ayrı ölkələrin siyasəti üçün necə keçəcəyini də astroloqlar məlum heyvanın xarakterinə görə müəyyən etməyə çalışırlar. Bəzən hətta ən ciddi siyasi xadimlərin astroloji proqnozlardan bəhs etdiyinin şahidi oluruq. Bəs görəsən siyasətdə astrologiya nə dərəcədə tol oynayır? Tarixən saraylarda şahların ayrılmaz dostu olan astroloqlar müasir siyasətə də təsir edə bilirmi?**

“Yeni Müsavat”ın suallarını cavablandıran **Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, heç vaxt ilin hansı heyvan üstündə təhvil olmasının siyasətə təsirinə inanmayıb: “Hamının fikrinə hörmətlə yanaşıram, ancaq fəaliyyətimi də



**İqbal Ağazadə:**
“Hesab etmirəm ki, il məhz astrologiyada deyilən göstəricilərə uyğun formalaşır”



**Sərdar Cəlaloğlu:**
“İnsanların taleyini Allah müəyyən edir, ulduzların bu məsələyə heç bir aidiyyəti yoxdur”



**Səbuhi Rəhimli:**
“Siyasətdə yanlış proqnozlar olduğu kimi astrologiyada da yanlış qanadlar var”

hansısa heyvanın üzərində qurmağın tərəfdarı deyiləm. Astrologiyaya inananlar da var, inanmayanlar da var. Mən hesab etmirəm ki, il məhz astrologiyada deyilən göstəricilərə uyğun formalaşır. Astroloji proqnozlara inansaydıq bu il hamının ən sevimli ili olmalıydı. Çünki meymun hamının sevimlisidir, insanları əyləndirə bilir. Ancaq gördüyünüz kimi bu il nə bizim üçün, nə də bizimlə dost olan ölkələr üçün, nə də dünya üçün elə də uğurlu il olmadı. Ona görə də mən hesab etmirəm ki, heyvan üzərindən yola çıxaraq ili proqnozlaşdırmaq olar. Nə isə qarşıma çıxanda oxuyuram, ancaq bu mənim üçün göstərici deyil. Qədimdə elm az inkişaf etdiyi üçün siyasətdə bu şəkildə inanclar ortaya çıxıb, bu sahəyə diqqət ayırıblar. Ancaq indi dünya kifayət qədər inkişaf edib, insanlar elmlidir. Gələcəyə astroloji proqnozlarla getmək olmaz. Artıq elm inkişaf edib, qədimdəki kimi rəmmallara, falçılara, astroloqlara ehtiyac yoxdur. İndi elmə söykənərək irəli getmək lazımdır. Siyasət də, inkişaf da, səbəb və nəticələr də elmin üzərində qurulub”.

**ADP sədri Sərdar Cəlaloğlu** isə bildirdi ki, İslam dininə görə astrologiyaya inanmaq küfr işdir: “Quranda Allah-Təala deyir ki, əgər siz desəniz ki, yağışı Allah yağdırır müsəlmansınız, desəniz ki, yağışı yağdıran ulduzlardır, o zaman küfrə gedərsiniz. Ona görə də, insanların taleyini Allah müəyyən edir. Ulduzların bu məsələyə heç bir aidiyyəti yoxdur. Düzdür, kosmik rabitələri biofizikaya təsiri var. O da aktivliyi müəyyən edir, məsələn, günəş partlayışında təzyiq qalxıb enir. Amma insan şüurlu varlıq olduğuna görə təbiət hadisələri olduğu kimi insan psixologiyasına hopmur. Bu baxımdan ulduzların hərəkətinə görə, gələcəyi deməyə çalışırlar. Bunlar hamısı xurafatdır, İslama zidd inanclardır. Astrologiya özü batil elmlərdən biridir. İslam dininə görə bu elm qadağan olunub. Özünə hörmət edən heç bir xalq da bu işlərlə məşğul olmur. Astroloji hadisələrin insanların fəaliyyətində heç bir rolu yoxdur. Ona görə də mən falçılara, ekstrasenslərə, astrologiyaya inanan siyasətçilərin yerinə utanıram. Bunlar hamısı qeyri-elmi yanaşmadır. İnsanlar nə qədər elmlə az məşğul olursa, bir o qədər xurafata meylli olurlar”.

**Astroloq Səbuhi Rəhimli** isə astrologiyanın ciddi elmi əsaslarının olduğunu bildirdi: “Hər bir sahənin yanlış qanadları, xurafata söykənən tərəfləri ola bilər. Siyasətdə yanlış proqnozlar olduğu kimi astrologiyada da uydurmalar, yanlış qanadlar var ki, zaman-zaman verirlər. Əslində bu xüsusi bir elm sahəsi olduğuna görə, kütləvi xalq üçün açıq bir sahə deyil. Mən 25 ildir bu sahədəyəm və astrologiyanın elmini, günah olan tərəflərini də, günah olmayan tərəflərini bilirəm. Dünya siyasətçiləri arasında astrologiyaya inananlar bu gün də var. Deməli, burada nə isə var ki, insanlar ona əsasən addım atırlar. Bəzən hətta bəzi siyasətçilər məndən ictimai-siyasi proqnozlar alırlar, əhsən də deyirlər. Ancaq efirə çıxanda deyirlər ki, bunlar boş şeydir. Çünki onlar ictimai qınaqdan, öz əhatəsində olan insanların qınağından qorxurlar, bunu etiraf etməyə cəsarətləri çatmır. Həmçinin din adamları astrologiya ilə maraqlanırlar, sonra isə bunun günah olduğunu deyirlər. Hamı lazım olan həqiqəti bilir. Sadəcə olaraq birdən baxırlar ki, əhatəsində olan insanlar bunu qınaya bilər, o zaman inandıqlarını inkar edirlər. Tarix boyu siyasətdə astrologiya olub, lakin məntiq və siyasi təhlil, həmin dövrün qanunları əsas rolu oynayır. Bu mənada bir qədər də astrologiyaya söykənmək olar”.

❑ Nərgiz LİFTİYEVA






# Rusiya hərbi raketlərinin azərbaycanlı müəllifi - bakılı balasının "S-300 Favorit" ixtirası

## İqor Aşurbəylinin film kimi həyat hekayəti; məşhur nəslin nümayəndəsi kiçik sahibkarlıqdan böyük ixtiraçıya necə çevrildi?

**Rusiya hərbi sənaye kompleksində işləyib çalışan super ixtiraçılar sırasında azərbaycanlılar həmişə öz xüsusi istedadları ilə seçiliblər. Mövzu yarıqapalı, hətta bəzən tam qapalı olduğuna görə biz bu uzun siyahıda ancaq bəzilərinin adını çəkə bilərik.**

Qalanlar barədə danışmaq hələ tezdi. Mətbuata adları açıqlanmış ixtiraçılarımız sırasında birinci yerləri sözsüz Paşayev Davud Hüseyn oğlu, İkram Kərimov, nəhayət, İqor Rauf oğlu Aşurbəyli bölüşür. Rəhmətlik Davud Paşayev, sualtı atom qayıqlarının ən yeni "Borey" nəslini ixtira edərək dünya okeanı dərinliklərinə buraxıb. İkram Kərimov isə əsl Dərviş Məstəli Şahdı - o, zəlzələ törədən tam məxfi tektonik silahın müəllifidir. İxtirası, indiyədək bütün dünya hərbiçilərini narahat edir. Deyilənə görə, bu silahdan Rusiya Müdafiə Nazirliyi vaxtaşırı istifadə edərək okeanlarda sunami dalğası yaradır. Həmin nəhəng dalğanı lazımi istiqamətə yönləndirib düşməni yer üzündən birdəfəlik silir. 2011-ci ilin 11 mart tarixində Yaponiyada baş vermiş zəlzələni, bəzi araşdırmaçılar məhz İkram Kərimovun işi bilərlər. Zəlzələ nəticəsində Yaponiyanın Fukayama, Onaqava atom elektrik stansiyalarında Çernobl qəzası yaşanıb. Yapon dövləti, itkiləri görərək Kuril adalarına qarşı iddialarını bir müddət unutmağa məcbur qalıb.

**Rusiya hərbi sənaye kompleksində çalışan digər məşhurumuz isə rəhmətlik tarixçi-alim Sara Aşurbəylinin yaxın qohumu İqor Aşurbəylidir.**

Biblioqrafiyası bir səhifəyə yerləşməyən bu əvəzsiz tədqiqatçı 2001-ci ildən 2011-ci ilədək Rusiya Federasiyasının ən məxfi cəbhəxanasına - "Almaz-Antey" elmi-tədqiqat birliyinə rəhbərlik edib. Məhz Aşurbəylinin rəhbərliyi altında Rusiya hərbi-sənaye kompleksi ən son silahlarını, yeni S-300 "Favorit", S-400 "Triumf" zenit raketlərini istehsal edərək onları NATO-nun qorxulu röyasına çevirib. O, həm də gələcəkdə istifadəyə veriləcək beşinci nəsil zenit raketlərinin nəzəriyyəçi mühəndisi kimi də tanınır. İndiki raket silahlarını sabah əvəzləyəcək "S-500", "Vityaz" və s. kimi ixtiraları Aşurbəyliyə Rusiyada böyük şöhrət qazandırıb.

Aşurbəyli təkcə ixtiraçı-mühəndis kimi tanınmır Rusiyada. O, həm də yaxşı, mükəmməl təşkilatçı kimi də tanınır. Rusiya raket istehsalı sahəsindəki pərakəndəliyi məhz Aşurbəyli 2010-cu illərdə dəf edərək bütün istehsalı bir mərkəzə - A.A. Raspletin adına "Almaz-Antey" elmi-istehsalat birliyi"nə tabe etdirməyi bacarıb.

2011-ci ildə Rusiyanın vahid kosmik-müdafiə sistemini quran, Suriyada rus silahını bütün dünyaya reklam edən şəxs də yenə odur - İqor Aşurbəyli, 1744-cü ildən adını tarixi salnamələrə yazdırmış məşhur Aşurbəyli nəslinin indiki ən tanınmış nümayəndəsi.

Aşurbəyli İqor həm də öz elmi fəaliyyəti ilə də məşhurdu - Londonda nəşr edilən "Room" adlı beynəlxalq kosmik jurnalın baş redaktorudur. Texniki elmlər doktoru adını daşıyan həmyerlimiz 100-dən çox elmi araşdırmaya imza atıb. Bir ensiklopediya, üç monoqrafiya müəllifidir.

Aşurbəyli, Rusiya Federasiyasının demək olar bütün orden, medallarıyla təltif olunub. Rusiya Pravoslav kilsəsi də bu siyahıdan kənarda qalmayıb - özünün beş ordenini sancıb həmyerlimizin yaxasına.











Rusiya dövlətinin 1000 nəfərlik xüsusi kadr rezervində Aşurbəyli fəxri 304-cü yerdədir. Dmitriy Raqozinlə - Rusiya hərbi-sənaye kompleksinin fəxri sədri ilə, Aşurbəylini sıx dostluq, əməkdaşlıq telləri birləşdirir. Hər ikisi, Rusiyanın aviasiya və kosmik sənayesini bir mərkəzdə cəmləşdirməyin tərəfdarıdırlar.

***

**Mətbuata verdiyi açıqlamada İqor Aşurbəyli öz həyatını belə təsvir edir:**

- Qorbaçovun 80-ci illərdəki çağırışına səs verərək mən - 1963 doğumlu gənc alim, Bakıda "Sosium" adlı müstəqil kiçik müəssisə təsis edib başladım pul qazanmağa. İlk qazancımızı - 300 min rubl pulu bankdan götürməyə gedərkən, yadımdadı, köhnə adətimizlə tramvaya mindik. Taksi götürməyi, inanın, ağlımıza belə gətirmədik. 1991-ci ildə aclıqdan məcbur qaldıq Bakıdan Moskvaya köçməyə. Moskvada "Beynəlxalq informasiya və telekommunikasiya birjası" təsis edib girişdim Rusiya informasiya bazarına. 1994-cü ildə Boris Vasilyeviç Bunkin, məşhur ixtiraçı, məni Rusiya hərbi sənayesinin göbəyinə - "Almaz" elmi-istehsalat birliyinə dəvət edəndə, vallah, əvvəlcə bilmirdim buna "hə" deyim, yaxud "yox". Birjam, bu məxfi qurumdan icarə götürdüyüm binada fəaliyyət göstərirdi. Səhmdarları sırasında tanınmış simalar çoxdu. "Almaz"çılar bizi ciddi güdürlər əvvəlcə. Sonra qərara gəlirlər, bizlə birləşib Rusiya hərbi-kosmik qüvvələrini tam yeni sistemdə təzədən qursunlar. İdeya, məni qanadlandırdı.

*- O vaxt hərbi sənaye özünün qızıl dövrünü yaşamırdı, axı. Necə oldi ki, Rusiya sənayesinin bu aparıcı sahəsində belə uğurlar qazandız? Ən mükəmməl raketləri ixtira edib Rusiyanın NATO-ya qarşı kosmik qalxanını yarada bildiniz?*




- 90-cı illərdə bizim sahədə iqtisadi qalxınmadan söz gedə bilməzdi. "Almaz-Antey" özünün böhran dövrünü yaşayırdı. Borc içində üzürdü. Putinin gəlişi ilə hərbi sifarişlərin miqyası, həcmi birə beş, birə on artdı birdən-birə. Hərbi sənaye isə, bilirsiniz, hər iqtisadiyyatın onurğa sütunudur. Burda sürətli inkişaf templərini təmin etmək bəsdir ki, ölkə iqtisadiyyatının digər sahələri də bir o qədər inkişaf etsin. İlk olaraq buna nail oldum. Gecə-gündüzüm yoxdu 2011-ci ilədək, vallah. Bilmirdim, divarların o tərəfində hansı fərqli həyat davam edir. Hərbi sənaye rəhbəri, sovet vaxtlarında olduğu kimi, 20-30 il sonranı görmək istedadına malik deyilsə, indidən istefa ərizəsini yazsın. Bəli, bizdə, belə idi. Biz 30-50 il sonranı nəzərə alıb, ən müasir zenit raketlərinin istehsalına girişdik. Rüşvət, mənimsəmə faktları bizi daim müşayiət etsə də, mən deyirdim - oğurlayın, yaxşı, bu, adətinizdi, ancaq çalışın stəkanın dibində nəsə qalsın.

*- Şəxsi biznesiniz durumu, yoxsa onu dövlət vəzifəsinə keçincə, ləğv etdiniz?*

- Niyə ki...yox... Hələ Bakıdaykən təsis etdiyim "Sosium" kiçik müəssisəsi. İndi nəhəng holdinqdir. İdarəetməni tapşırmışam otuz yaşlı oğluma. Qoy özünü bu sahədə sınasın bir, sonra ona daha perspektivli sahələri tapşıracam. 30-dan çox müəssisənin qatıldığı holdinqdə indi 30 min insan çalışır. İldə cəmi dörd dəfə ora gedərəm. Səhmdarları yığıb lazımi göstərişlər verərəm. Vəssalam.

*- "Rusiya Kosmik-Hava Qüvvələri" sistemi sizlə Raqozinin birgə müəllifliyi altında yaradılıb. Suriyada müvəffəqiyyətlə imtahandan çıxdı. Necə baş tutdu bu təşəbbüsünüz?*

- 2004-cü ildən "Kosmik-Hava müdafiəsi üzrə ekspertlər şurası"nı təsis edib ona rəhbərlik etməyim, öz müsbət nəticəsini verməkdədir. Ekspertiza - bu çox vacib məsələ indi bizim ixtiyarımızdadır. Avropa Şurası bu təşəbbüsümüzü əvvəlcədən süngü ilə qarşıladı. Qarşıdurma hələ də davam edir.

*- Sanksiyalara məruz qalırsız?*

- Əlbəttə. İndi BMT nəzdindəki EKOSOS beynəlxalq təşkilatında qeydiyyatdan keçirik. Sanksiyalardan yan ötməyimiz bu statusla bağlı olacaq. Hələlik çulumuzu birtəhər sudan çıxarırıq. Bəli, mən "S-400"-dən daha mükəmməl bir silah bəlkə bir də ixtira etmədim. Ancaq həmişə gələcəyə baxıram. İstəyirəm yeni silahların 5-ci, 6-cı nəslini istehsala buraxım.

*- Gələcəyi görməkdə, bəli, deyirlər əvəziniz yoxdur. Ukrayna ilə hərbi əməkdaşlıq, məhz sizin sayənizdə 2002-ci ildən ixtisara düşməyə başladı. Nəticədə Rusiya hərbi sənayesi həm Kiyevdən öz asılılığını qoruyub saxladı, həm də "S-300, 400, 500" raketlərinin istehsalını.*

- Bəli. Biz buna artıq 2002-dən hazırdıq. Bəziləri, təəssüf ki, bunu çox gec dərk etdilər.

***

Qayıdaq uzaq qarlı Moskvadan cənuba - Bakıya. İndiki 2000-ci illərdən ötən əsrin 80-ci illərinə. İqor Aşurbəyli o uzaq vaxtlar, M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun ən mürəkkəb "Avtomatlaşdırılmış istehsalat prosesləri" fakültəsinə daxil olarkən xüsusi konkursdan keçməyə məcbur qalır. Konkurs zamanı, 16 tələbəni arxada buraxıb, öz tələbə vəsiqəsini qazanır. Burda da öz gələcək həyat yoldaşı Vika Burşteynlə tanış olub 1983-cü ildə onunla ailə həyatı qurur. 1984-cü ildə ailənin ilki - Ruslan doğulur. İndi o, atasının Moskvadakı şəxsi biznesinə uğurla rəhbərlik edir.

İqor Aşurbəyli Bakıda həm də qəzet naşiri kimi tanınıb vaxtı ilə. 90-cı illərdə Mətbuat prospektindəki ofisində "Êòî åñòü êòî" qəzetini buraxmaqla özünü naşir kimi də sınaqdan çıxarıb.

Lakin Aşurbəylinin Bakı fəaliyyəti, Moskvadakıyla müqayisədə çox da uğurlu alınmır. Fəqət gəlin buna qiymət verək, - Moskva triumfundan sonra da həmyerlimiz doğma şəhərini unutmur. 2000-ci illərdən başlayaraq tez-tez Bakıda görünməyə başlayır. O, Qız qalası tərəfdəki dədə-baba mülkünü geri qaytarıb orda "Aşurbəyovlar evi"ni təsis edir. Bu sülalənin 1743-cü ildən başlayan Bakı dövrü ilə həmin binada tanış olmaq mümkündü.

Aşurbəyovlar evi ətrafında bu yaxınlarda qəribə, qanqaraldan bir əhvalatın baş verdiyini gərək burda qeyd edəm. Sara Aşurbəylinin Bakıdakı ünvanını (Vidadi küç. 143) bəzəyən 200 kiloqramlıq tunc xatirə lövhəsi ötən ay öz yerindən oğurlanıb. İqor Aşurbəylinin müdaxiləsindən sonra lövhə tapılaraq, yenidən öz yerinə qoyulub. Mütəxəssislər deyir ki, İqor Aşurbəylidə əsl Şerlok Holms istedadı olmasa, lövhə bəlkə çoxdan isti sobaların birində əridilib yoxa çıxmışdı.

Lakin Aşurbəyli Azərbaycanla münasibətlərini təkcə humanitar sahədə deyil, həm də hərbi sahədə qurmağı da bacarır. Müəllifi olduğu "S-300 Favorit" raketləri indi Azərbaycanın hava ərazisini düşmən həmlələrindən göz bəbəyi kimi qoruyur.

**Sözü verək burda Aşurbəylinin özünə:**

- Hərbi mövzularda danışmaqdan çəkinirəm. Ancaq Azərbaycan ordusunun bu gün "S-300" raketləri ilə təchiz olunması, inanın, məni çox sevindirir. Raketlər Azərbaycana dövlətlərarası müqavilə çərçivəsində verilib. İxtiram Azərbaycanın tam təhlükəsizliyinə təminat verərək, hamımızın dinc həyatını qoruyur. Çox istərdim ki, bu silahdan istifadə olunmasın. Çox böyük dağıdıcı gücə malik bu uçan əjdaha düşmənə anında, beşikdəcə zərbə endirməyə hər an hazırdı. Raketlərim hədəfi dəqiq vurur - bir santimetr o yan-bu yan yoxdu, raket öz yuvasından çıxdımı, daha onun qarşısını heç nə kəsə bilməz.

***

Bu il noyabrın 12-sində, Parisin məşhur "Rits" otelində keçirdiyi beynəlxalq konfransda İqor Aşurbəyli "Asqardiya" adlı kosmik dövlətin təqdimatını keçirib. Beləliklə, ixtiraçı alimimiz beynəlxalq projelərə start verib. İndən belə kosmosda yaranacaq yeni dövlətin bütün cari işləri İqor Aşurbəyliyə tapşırılıb.

Konfrans iştirakçıları sırasında bəlkə də mənim doğma əmim - məşhur Fransa astrofiziki, "Ariana" kosmik proqramının müəlliflərindən biri Cəmşid Herisçi də olub.

Mətbuat üçün tam qapalı saxlanılan əmimi heç vaxt görməsəm də, xəyallarımda onu həmin "Rits" otelində gördüm sanki. Gördüm ki, əmim necə orda öz bakılı həmkarıyla görüşüb öz "Ariana" dünyasını "Asqardiya"ya calayır.

**İnanıram ki, bütün bunlar, Azərbaycanın da kosmik maraqlarına xidmət edəcək bir vaxt.**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 277 (6598) 13 dekabr 2016

# Tam üzən məzənnəyə keçid nə vəd edir?

## Ekspertlər Elman Rüstəmovun açıqlamasına ritorik cavablar verdilər; əgər dövlətin müdaxiləsi olmasa, dollar 3 manatı da ötə bilər...

**Manatın taleyi ilə bağlı narahatlıqlar davam edir. Milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsində qeyd edilib ki, tam üzən məzənnə rejiminə keçid həyata keçirilməlidir və bu baxımdan, ilk növbədə yaxın və ortamüddətli dövrdə məzənnə siyasətinin əsas strateji hədəfi kimi idxalın əvəzlənməsi siyasətinin dəstəklənməsi prioritet seçilə bilər. Sənəddə qeyd edilib ki, qlobal əmtəə bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsinin Azərbaycanın xarici və daxili iqtisadi balansına neqativ təsirlərini minimuma endirmək, ölkə iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək, həmçinin ölkənin malik olduğu xarici valyuta ehtiyatlarının bütövlüyünü təmin etmək məqsədilə Azərbaycan Mərkəzi Bankı (AMB) İdarə Heyətinin 2015-ci il 21 dekabr tarixli qərarı ilə sabit məzənnə rejimindən imtina edilib, üzən-tənzimlənən məzənnə rejiminin tətbiqinə başlanılıb.**



"Tam üzən məzənnə rejiminin tətbiqinə nail olmaq üçün ilk növbədə yaxın və ortamüddətli dövrdə hazırda tətbiq edilən üzən-tənzimlənən məzənnə rejiminin məzmununun bir daha dəqiqləşdirilməsi vacibdir. Məhz istehlak səbətində idxal məhsullarının payının azaldılmasına nail olma səviyyəsinə uyğun şəkildə məzənnə üçün faktiki tətbiq edilən dəhlizin genişləndirilməsi, ortamüddətli dövrdə isə tamamilə ləğv edilməsi üzən rejimə səmərəli keçidi təmin edəcək. Üzən məzənnə rejiminə keçidin şərtlərindən biri də daxili maliyyə bazarının inkişafına, bazarda hedcinq və məzənnə risklərindən sığortalanmağa imkan verən digər maliyyə alətlərinin təqdim edilməsinə nail olmaqdır",- deyə sənəddə qeyd edilib.

Bundan əlavə, AMB-nin valyuta bazarına müdaxilə strategiyasının hazırlanması və onun maliyyə bazarı iştirakçılarına səmərəli şəkildə kommunikasiya edilməsinin təmin olunması istiqamətində tədbirlər nəzərdən keçiriləcək. Tədbirlər planına əsasən, tam üzən məzənnə rejiminə keçid 2017-ci ildə təmin olunacaq. Burada əsas icraçı AMB, digər icraçılar isə Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatasıdır.

**Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov** isə bildirib ki, Azərbaycan bu ilin əvvəlindən üzən məzənnə rejiminə keçib: "Biz bu ilin əvvəlindən artıq üzən məzənnə rejimində çalışırıq. Bunu təsdiq edən fakt odur ki, artıq Mərkəzi Bank fevral ayından bazarda öz valyutasını satmır". **E.Rüstəmov qeyd edib ki, bu gün bazarda tələb təklifi üstələyir:** "Buna görə, tam üzən məzənnəyə keçid ciddi hazırlıq tələb edir. Biz bu plana uyğun olaraq işləyirik. Bizim əsas məqsədimiz makroiqtisadi sabitliyə nail olmaqdır". (APA)

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əslində bu, terminlərlə oynamaqdan başqa bir şey deyil: "Üzən məzənnə ya olur, ya olmur. Bunun tam, yarımçıq və yaxud yarı üzən məzənnə rejimi dünyanın heç bir ölkəsində yoxdur. Azərbaycanda keçən ilki ikinci devalvasiyadan sonra - dekabrın 21-də Mərkəzi Bank artıq üzən məzənnə rejiminə keçdiyini bəyan etmişdi. Əslində isə Azərbaycanda nə dünən, nə bu gün üzən məzənnə rejimi olmayıb. Çünki məzənnə yenidən inzibati qaydada müəyyənləşdiriləcək. Çünki üzən məzənnə üçün infrastruktur lazımdır. Qiymətli kağızlar birjası, valyuta birjası, ölkəyə valyuta gətirən yüzlərlə şirkət və bazara valyuta çıxara biləcək yüzlərlə oyunçu lazımdır. Azərbaycanda bu, yoxdur. Elman Rüstəmov özü də etiraf etdi ki, bazara ya Mərkəzi Bank, ya Neft Fondu valyuta çıxara bilir, iki mənbə var. Bu ilin mart ayından Mərkəzi Bank ümumiyyətlə satışları dayandırıb. Ehtiyatları 4 milyard dollara qədər endi. Bundan aşağı düşməsinə Mərkəzi Bank imkan vermir. Bunun da səbəbi var. Azərbaycan ciddi borclanmaya gedir. Mərkəzi Bankın ehtiyatı ölkənin borc alınmasında bir qarant rolunu oynayır. Ona görə ehtiyatların 4 milyarddan aşağı düşməsində Mərkəzi Bank, hökumət maraqlı deyil. Yeganə oyunçu Neft Fondudur. Yeddi-səkkiz aydır ancaq Neft Fondu hərraclarda valyuta satır. Gələn ildən də Neft Fondunun büdcə qarşısında öhdəlikləri var, təqribən 4 milyard dollar civarında valyuta sata bilər. Belə çıxır ki, gələn il valyuta bazarında yeganə oyunçu Neft Fondu olacaq. Cəmi 4 milyard dollar satacaq. Digər oyunçular yoxdur. Azərbaycanda təəsüf ki, digər oyunçuların olmaması yenidən üzən məzənnə sisteminə keçməyə imkan verməyəcək. Ayda valyutaya tələbat təxminən 1 milyarda dollara yaxındır. Cəmi 4 milyard dollar bazara çıxacaqsa, tələbat da illik 12 milyarddırsa, heç bir inzibatı müdaxilə olmasa, dolların məzənnəsi 3 manatı da keçə bilər. Buna da Azərbaycan iqtisadiyyatı dözməz, bank sektoru dözə bilməz. Ona görə adını nə qoyurlar, qoysunlar, Azərbaycanda nə dünən, nə bu gün, nə sabah üzən məzənnə rejimi olmayacaq. Məzənnə ancaq inzibati qaydada, Mərkəzi Bankın müəyyən etdiyi qaydada realizə olunacaq. Çünki institusional olaraq Azərbaycan üzən məzənnə rejiminə hazır deyil".

**Ekspert Əkrəm Həsənov** isə "Lap yekun tam "üzən məzənnə"yə keçid nə vaxt olacaq?",- deyə ritorik sual edib. Ekspertin sözlərinə görə, Mərkəzi Bank üzən məzənnəyə 2015-ci ilin dekabrında keçdiyini bəyan edib: "Elman Rüstəmov deyib ki, "tam üzən məzənnəyə keçidlə bağlı işlər aparılır və tezliklə öz proqramımızı ictimaiyyətə elan edəcəyik". Halbuki 21 dekabr 2015-ci ildə bəyanat vermişdi ki, "Mərkəzi Bankın İdarə Heyəti 21 dekabr 2015-ci il tarixində üzən məzənnə rejiminə keçilməsi barədə qərar qəbul edib. Deməli, ötən bir il ərzində üzən məzənnə yox idi? "Tam üzən məzənnə" ilə "üzən məzənnə" arasında fərq nədir? Növbəti ilin də sonunda deyəcək ki, "yekun tam üzən məzənnə"yə, sonrakı ildə isə "lap yekun tam üzən məzənnə"yə və sair məzənnələrə keçirik?"

❑ RÖYA

# 4 intihara "şahidlik edən" bina....

## Dəhşətli özünəqəsdlərin olduğu yaşayış kompleksindən reportaj

**Bakıda bir yaşayış binasından cari ildə iki nəfər özünü atıb öldürüb. Lakin buna baxmayaraq, intiharın qarşısını almaq üçün müvafiq tədbirlər görülmür...**



Dekabrın 10-da Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Uğur-2 kompleksində intihar hadisəsi baş verib. Belə ki, yaşayış kompleksində 2-ci binanın 19-cu mərtəbəsində özünü atan orta yaşlı qadın, həyətdə dayanan "KİA" markalı avtomobilin üzərinə düşərək parça-parça olub.

Onu da qeyd edək ki, bu, yuxarıda adını qeyd etdiyimiz kompleksdə birinci intihar hadisəsi deyil. Belə ki, 2015-ci ilin noyabr ayında da hadisə baş verən binanın 19-cu mərtəbəsindən 1990-cı il təvəllüdlü Dadaşova Ayşə İlqar qızı özünü ataraq intihar etmişdi.

İntiharların baş verdiyi bu əraziyə yollanıb oradakı şəraitlə, təhlükəsizlik tədbirlərinin hansı səviyyədə olması ilə maraqlandıq.

Ərazidə olduğumuz zaman müşahidə etdik ki, kompleksin həyətində insanların istirahətinə normal şərait yaradılıb. Belə ki, kompleksin ərazisində park salınıb, kiçik futbol meydançası tikilib, skamyalar qoyulub. Binaların altında mağazalar, gözəllik salonları, müxtəlif ofislər də fəaliyyət göstərirlər. Kompleksin ərazisini mühafizə etmək üçün xüsusi post da qurulub. Lakin biz kompleksin içərisinə çox sərbəst şəkildə daxil olub, fotolar çəkib, intiharların baş verdiyi 19-cu mərtəbəyə qədər qalxdıq. Həyətdə mühafizəçi görsək də, o bizdən nə və ya kimi axtardığımızı soruşmadı...



Söhbət etdiyimiz sakinlər də təsdiqlədilər ki, burada mühafizə çox zəif təşkil olunub. **Sakin Qafur Mirzəyev** "Yeni Müsavat"a bildirdi ki, binalara kim istəyirsə, rahat şəkildə daxil ola bilir: "Öncə baş verən son intihar hadisəsi barəsində onu deyim ki, həmin qadın buranın sakini olmayıb. Axşam saatlarında gəlib, rahat şəkildə binanın 19-cu mərtəbəsinə qalxıb və orada blokun eyvanından özünü atıb. Bu, ötən illərdən bəri burada baş verən sayca 4-cü intihar hadisəsidir. Ötən dəfə intihar edən qadın burada kirayə yaşayırdı. Ancaq iki gün öncə intihar edən şəxs buranın sakini deyildi. Hər dəfə deyirik ki, blokların girişində şifrəli qapı qoyun, ancaq xeyri yoxdur. Binaya baxan şəxslər deyirlər ki, qoyacağıq, lakin dediklərini etmirlər. Hazırda gördüyünüz dəmir qapıları da təzə qoyublar. Əvvəl heç bu da yox idi. Elə bütün bloklar qapısız idi. Blokların hamısında böyük eyvanlar var. Lap intihar etmək istəyənlər bir yana, bu, uşaqlar üçün də təhlükəlidir. Həmin eyvanların heç qapısı da yoxdur. Heç olmasa bloka qoymurlar, bu eyvanlara qapı qoysalar, yenə də bu kimi hadisələrin qarşısını bir qədər alınmış olar".





Yuxarıda da qeyd etdiyimiz kimi biz də binanın 19-cu mərtəbəsinə qalxıb, qadının özünü atdığı eyvanda bir xeyli dayanıb, foto çəkdik. Lakin bu müddət ərzində mühafizədən heç kim bizə yaxınlaşıb, bir söz demədi. Müşahidə etdik ki, binaların girişində kameralar quraşdırılıb. Bundan əlavə yuxarı mərtəbələrin eyvanlarına çıxan yolda da kamera var. Həmin kameralar birbaşa olaraq eyvanı çəkir. Lakin görünür ki, bu kameralar ya hələ quraşdırılmayıb, yaxud da nəzarət edən yoxdur.

**Sakin Kəmalə xanımın sözlərinə görə, binada yaşayış tam deyil. Əvvəlcə bunu bəhanə edib, qapı qoymurdular:** "Burada mənzillərdə hələ tam yaşayış yoxdur. Əvvəlcə komendant deyirdi ki, tam yaşayış olduqdan sonra bütün işlər yekunlanacaq. Ancaq digər məsələlər öz həllini tapıb. Düşünürəm ki, qapı problemin də həll etsələr həm bizim təhlükəsizliyimiz müəyyən qədər sığortalanmış olar, həm də digər insanların binaya daxil olmaları mümkünsüz olar".

**Bütün bu səslənən fikirlərə münasibət almaq üçün kompleksin komendantı oturan ofisə yollandıq. Özünü İlham kimi təqdim edən komendant intihar hadisələrindən xəbərdar olduğunu bildirdi. Söylədi ki, binaya xüsusi mühafizə şifrəsi olan qapıların quraşdırılması nəzərdə tutulub:**

"Əvvəla onu deyim ki, intihar edən şəxs bu binanın sakini olmayıb. Biz daha öncə kodlu qapılar quraşdırmışdıq. Ancaq müşahidə etdik ki, sakinlər dartıb bu qapını da qırırlar, qapını zədələyirlər. Buna baxmayaraq, yenə də binaya xüsusi qapıların quraşdırılması məsələsi nəzərimizdədir. Bir məsələ də var ki, intihar etmək istəyən şəxs, hansısa sakin qapını açanda da içəri girib, özünü yuxarı mərtəbələrdən ata bilər də. Binanın iki mühafizəsi də var. Kameralar da quraşdırılır. Quraşdırılma tam başa çatdıqdan sonra hamısı işləyəcək. O zaman xüsusi nəzarət də olacaq".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 277 (6598) 13 dekabr 2016

# Hava şəraiti kəskin dəyişəcək yağış, sulu qar, qar yağacaq



**Dekabrın 10-dan başlayaraq paytaxt Bakıda nisbətən mülayim hava şəraiti müşahidə olunurdu. Ötən günlər ərzində temperatur 3-4 dərəcə artaraq 8-10 dərəcəyədək qalxmışdı. Azərbaycanın digər şəhər və rayonlarında da hava şəraiti əsasən yağmursuz keçir, temperatur 2-3 dərəcə artıb. Bəs bu cür hava şəraiti nə vaxta qədər davam edəcək?**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, dekabrın 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.

Səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq.

Arabir güclənən mülayim cənub-qərb küləyi gündüz mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeron yarımadasında gecə 3-6, gündüz 11-16 dərəcə isti, Bakıda gecə 4-6, gündüz 13-15 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 754 mm civə sütunundan 758 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85%, gündüz 50-60 % təşkil edəcək.

Azərbaycanın rayonlarında sabah hava şəraiti əsasən yağmursuz olacaq. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Lakin axşam bəzi şimal və qərb rayonlarında yağıntılı olacağı, qar yağacağı gözlənilir. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti olacağı gözlənilir.

Xəbərdarlığa görə, bir neçə gün davam edən mülayim hava şəraitindən sonra dekabrın 14-15-də ölkə ərazisində hava şəraitinin kəskin dəyişəcəyi, arabir yağış, sulu qar, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi bəzi yerlərdə arabir güclü olacaq. Havanın temperaturu ötən günlərlə müqayisədə 7-10 dərəcə aşağı enəcək. Yollar buz bağlayacaq.

Bu arada belə fikirlər də var ki, bəzi günlərdə hava şəraiti pisləşsə də, ümumən dekabrda hava nisbətən mülayim keçir.

Halbuki, bundan əvvəl ekspertlər dekabr ayında havaların kəskin soyuyacağını, qışın çox sərt keçəcəyi ilə bağlı proqnozlar vermişdi.

**Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov** hazırkı hava şəraitinin dekabr ayı üçün xarakterik olduğunu bildirdi: "Əksinə, əvvəllər dekabrın əvvəllərində belə soyuq hava müşahidə olunmurdu, necə ki, indi. Bundan əvvəl dekabr ayında havanın temperaturu 10-15 dərəcə olurdu. İndi isə tərsinə olub, temperatur normadan aşağı düşüb. Günorta havanın temperaturu 8-10, axşam isə 4-5 dərəcə olur.

Bizdə qış dekabrın axırından başlayaraq, yanvar və fevral aylarında daha da sərtləşir. Əvvəlcə də qeyd etmişəm ki, bu, küləyin istiqamətindən asılıdır. Əgər cənub küləyi əsərsə havalar isinəcək, yox əgər şimal küləyi əsəcəksə havalar soyuyacaq, təbiətin qanunu belədir. Son dövrlərdə mən hiss edirəm ki, şimal külәkləri üstünlük təşkil edir, nəinki, cənub küləyi. Çünki buzlaqlar əriyir, buzlar, soyuq su ekvatora, cənuba doğru hərəkət edir, ona görə də havalar soyuyur. Bəli proqnoz vermişdim ki, sərt qış olacaq. Çünki atmosferdə soyuma prosesi gedir. Amma deməmişəm ki, qar yağacaq. Sərt qış dedikdə, yəni qarsız şaxta da ola bilər. Ola bilər ki, qar yağsın şaxta olsun, sonra isə hava mülayimləşsin. Məsələn, 5 il bundan əvvəl Xəzər dənizi şaxtadan donmuşdu, halbuki, qar yağmamışdı. Amma dənizin bütün sahili donmuşdu.

Bir daha qeyd edirəm ki, bütün bunlar küləyin istiqamətindən asılı prosesdir".

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Bakıda valideyn rəzaləti; yeni doğulmuş uşağı zibilliyə atdılar

**Bakıda zibillikdən yeni doğulmuş körpə tapılıb. "Report"un xəbərinə görə, hadisə Yasamal rayonu Əlibəy Hüseynzadə küçəsi 49 nömrəli binanın qarşısında qeydə alınıb.**

Belə ki, binanın qarşısındakı məişət tullantıları qutusunda Mənzil Kommunal İstismar Sahəsinin əməkdaşları körpəyə rast gəliblər. Onun qız olduğu müəyyən olunub. Körpə aidiyyatı üzrə Yasamal Rayon Polis İdarəsinin əməkdaşlarına təhvil verilib. Daha sonra o, "Təcili yardım" maşını ilə Elmi-Tədqiqat Pediatriya İnstitutuna yerləşdirilib.

Məlum olub ki, körpənin göbəyi də kəsilməyib, o bir-günlükdür. Hazırda körpə institutun reanimasiya şöbəsindədir. Onun vəziyyəti ağır kimi qiymətləndirilir.

Elmi-Tədqiqat Pediatriya İnstitutu Bakıda zibillikdən tapılan körpənin səhhətinə aydınlıq gətirib.

**Xəstəxananın həkimi Aygün Qasımova** AzNews.az-a açıqlamasında bildirib ki, uşaq xəstəxanaya çox ağır, ölümcül vəziyyətdə gətirilib:

"Soyuducuda donmuş qara ət kimi idi, əl vurmaq olmurdu. Buz kimi, göbəyi, cifti üstündə uşağı zibil kimi küçəyə atıblar. Baxdıq, yaşamaq üçün şansı az idi. Reaksiyalar yox idi. Müayinə zamanı məlum olub ki, onu zibilliyə atanda zərbədən ağ ciyərinin pərdəsi partlayıb. O pərdə çox incədir, partlayanda ciyər yığıla bilmir. Cərrahlar əlindən gələni etdi. Hazırda uşaq süni nəfəs aparatına qoşulub."

A.Qasımova qeyd edib ki, uşağın üstündə əskidən başqa heç nə yox idi:

"Normal şəkildə evdə doğulan uşaqdır. Çəkisi 3 kq-dır".

Faktla bağlı araşdırma aparılır.

## Qobustan sakini evində yanıb öldü

**Qobustan rayonunda ölümlə nəticələnən yanğın hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, dekabrın 11-də saat 20 radələrində Qobustan rayonunun Poladlı kəndində yaşayan Xalıqverdi Mirzəyevin evində yanğın baş verib. Nəticədə evin yanar konstruksiyaları və oradakı əşyalar yanıb, yanğın söndürüldükdən sonra X.Mirzəyevin yanmış meyiti tapılıb.**



## Dəm qazı daha iki can aldı

**Bakıda daha iki nəfər dəm qazından boğulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Gununsesi.info-ya verilən məlumata görə, dekabrın 11-də Binəqədi rayonu ərazisində yaşayan Azad Caniyev və Sabunçu rayonu ərazisində yaşayan Asifə Qasımova evlərində dəm qazından zəhərlənərək ölüblər. Hər iki faktla bağlı araşdırma aparılır.**

YENİ MÜSAVAT
N 277 (6598) 13 dekabr 2016

# 10 min nəfərin talassemiya daşıyıcısı olmasının əsas səbəbi

## Adil Qeybulla: "Əgər uşaq talassemiyalıdırsa, onun doğulmasına icazə verilmir"

**Nikaha daxil olmaq istəyən 10 minə yaxın şəxsdə talassemiya daşıyıcılığı aşkarlanıb. Bu barədə Səhiyyə Nazirliyinin yaydığı məlumatda deyilir. Bu, Azərbaycan kimi kiçik bir ölkə üçün təbii ki, böyük rəqəmdir.**

Talassemiyanın ən ağır formalarına əksər hallarda bir-biri ilə qan qohumluğu olan nikahlarda təsadüf edilir. Talassemiya nəsildən-nəslə keçən çox ağır irsi qan xəstəliyidir. Belə xəstələrdə lazım olan miqdarda hemoqlobin hasil olmur, qanla birlikdə bədənə dəmir də köçür ki, bu da orqanizmdə dəmir artıqlığı yaradır. Dəmir artıqlığı 11 yaşından sonra insanın qara ciyərini, ürəyi, sonra endokrin sistemini zədələyir. Belə uşaqlarda cinsi yetişkənlik əlamətləri əmələ gəlmir. Yığılmış dəmir ürək-damar çatışmazlığının inkişafı nəticəsində xəstənin ölümünə səbəb olur.

Talassemiyanın ən ağır formalarına da əksər hallarda bir-biri ilə qan qohumluğu olan nikahlarda təsadüf edilir. Bir-biri ilə yaxın qohum olan gənclər ailə qurmaqda təkid etdikləri halda gələcəkdə ağır patologiyalı, məsələn, talassemiyalı uşaqların doğulmaması üçün onlar müvafiq tibbi müayinədən (həmçinin genetik) keçməlidirlər.



Ümumiyyətlə müsəlman ölkələrində qohum evliliklərinə daha çox rast gəlinir, nəinki Avropa ölkələrində. Azərbaycanda evliliklərin 50 faizdən çoxunu qohum evlilikləri təşkil edir. Bu ailələrdən dünyaya gələn uşaqların da 50 faizi qüsurlu doğulur. Statistikaya görə, xalaoğlu-xalaqızı nikahlarından olan uşaqlar daha çox qüsurlu olur. İkinci yerdə əmioğlu-əmiqızı, üçüncü yerdə bibioğlu-dayıqızı nikahları dayanır. Türkiyədə də vəziyyət demək olar ki, Azərbaycanla eynilik təşkil edir. Türkiyənin təkcə Trakya bölgəsində qohumlar arası evliliyə müsbət rəy vermirlər.

Araşdırmalar zamanı müəyyən olunub ki, yad insanların evliliyindən doğulan uşaqların qüsurlu olma riski 2-4 faizdirsə, qohum evliliklərində bu göstərici 4-8 faizdir. Yəni bu risk 2 dəfə artır. Qohum nikahlar genetik xəstəlikləri artıran önəmli faktordur. Qohum evliliklərdə ən çox rast gəlinən qan xəstəlikləri, göz, qulaq, əzələ - sinir, ürək-damar və şəkər xəstəlikləri, ağıldankəmlik və sairədir. Qan xəstəlikləri arasında isə talassemiya, hemofiliya və başqa qan xəstəlikləri daha çox yayılıb. Alimlərin araşdırmalarına görə, sümük iliyi nəqli dedikdə, sadəcə, xərçəng xəstələri ağla gəlsə də, irsi xəstəlik aşkar olunan xəstələr üçün də sümük iliyi vacib amildir. Belə ki, irsi xəstəliklərin bir qismi sadəcə, sümük iliyi ilə müalicə edilir.

Qohum evliliyinin yaratdığı fəsadlardan biri otozomal resesif xəstəlikləri adlanır. Burada genetik keçmənin özəllikləri isə odur ki, ilk növbədə, cinsiyyət fərqi yoxdur. Otosomal resessiv xəstəliklər hər nəsildə özünü göstərmir. Sağlam ata-anadan doğulan uşaq xəstədirsə, həm ana, həm də ata daşıyıcıdır (heterozigot). Normal olan ata-ananın uşaqlarının 1/2-nin daşıyıcı olması, 1/4-nin isə genotipik olaraq tamamilə sağlam olması gözlənir. Xəstə adam ilə genotipik olaraq tamamilə sağlam şəxs evlənərsə, uşaqlarının hamısı daşıyıcı olacaq. Xəstə şəxslə daşıyıcı şəxs evlənərsə, uşaqlarının yarısı xəstə, yarısı daşıyıcı olacaq. Daşıyıcılar, fenotipik olaraq sağlam olsalar da xəstə genləri sonrakı nəsillərə ötürən daşıyıcı vəzifəsini yerinə yetirirlər.

Onu da qeyd edək ki, qan bağı olmadan da bu xəstəliklər iki daşıyıcı evlənərsə, ortaya çıxa bilər, ancaq eyni tip xəstəlikli genlə qarşılaşma riski qohumluq olduğunda daha yüksək olacağından, xüsusilə də ailəsində otozomal resesif xəstəlikləri olan şəxslərin mütləq genetik məsləhət almaları və yaxın qohumla evlənəcəyi zaman ortaya çıxacaq təhlükələr haqqında məlumat almalıdırlar.

Dünya ölkələrində, İngiltərədə, Hollandiyada, İsveçdə, Hindistanda, Yamaykada, Küveytdə, Almaniyada, Suriyada, Fələstində, Livanda, Ərəbistanda qohum evlilərə nadir hallarda təsadüf olunur. Almaniyada əmioğlu-əmiqızı evliliyi tamamilə qadağandır. ABŞ-ın isə 50 ştatının 24-də əmi, dayı, xala, bibi uşaqlarıyla, yəni 1-ci dərəcəli qohumlarla ailə qurmaq qadağandır. 6 ştatda evlənmək istəyən qohumların qarşısına bəzi şərtlər qoyulur. Məsələn, Arizondakı qaydalara görə, yaş 65-i keçibsə, qadın, yaxud kişi sonsuzdursa, o zaman evlənə bilərlər.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** talassemiyanın irsi bir xəstəlik kimi Azərbaycanda da geniş yayıldığını dedi: "Bu, irsi xəstəlikdir. Sadəcə olaraq bunun hazırda belə böyük rəqəmlə aşkar olunması yoxlamalarla bağlıdır. Əvvəllər insanlar nikah öncəsi yoxlanmırdılar. Yalnız talassemiyalı uşaq doğulandan sonra valideynlər gedib yoxlanırdı və bu zaman aydın olurdu ki, hər iki valideyn talassemiya daşıyıcısıdır. Talassemiya proqramı çıxdıqdan sonra nikaha girənlərin yoxlanışı proqrama daxil oldu, belə aşkarlanma da təbiidir. Yəni bu yoluxucu, keçici xəstəlik deyil. Sadəcə olaraq talassemiya irsi yolla sonrakı nəsillərə ötürülə bilər. O baxımdan da talassemiyalı uşaqlar ana bətnində təyin oluna bilir. Əgər uşaq talassemiyalıdırsa, onun doğuşuna icazə verilmir. Talassemiya daşıyıcıları evlənincə bu xəstəlik daşıyıcısı olan uşaqların da doğulma şansı çoxdur".

❑ **Günel MANAFLI**

# Tarif Şurası su ilə bağlı qərarına izahat verdi

## "Heç bir artım olmayıb"

**Tarif Şurası "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinin tariflərinin təsdiq edilməsi barədə" 2016-cı il 13 may tarixli 6 nömrəli qərarına dəyişiklik edib. Dəyişikliklərə əsasən, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti üzrə 1 kub metr su təchizatına görə (tullantı sularının axıdılması xidmətləri də daxil olmaqla) tarif ƏDV ilə birlikdə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu üçün 0,50 manat, digər inzibati ərazi vahidləri üçün isə 0,45 manat təsdiq edilib.**

Daha öncə bu qiymətlər müvafiq olaraq 35 və 30 qəpik idi, yəni qiymət 1 kubmetr su təchizatına görə 15 qəpik artırılıb.

Tarif Şurasının bu qərarı mətbuatda "su bahalaşdı" kimi təqdim olunub. Lakin söhbət heç də suyun tarifinin bahalaşmasından getmir.

"Yeni Müsavat"a danışan aidiyyəti qurumların rəsmiləri tariflərdə heç bir dəyişikliyin olmadığını bildirdilər.

**"Azəristiliktəchizat" ASC-nin abonent və müştəri xidmətinin rəisi Rafiq Əliyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, artıq saytlar bu cür yalan informasiyaları "Azəristiliktəchizat"a qarşı mənəvi terror çeviriblər: "Əgər bu mətbuat orqanlarının Tarif Şurasının qərarını anlamağa savadı çatmırsa, bu bizim problemimiz deyil. Bu insanların savadı yoxdur. Dəyişikliyin nə olduğunu öyrənmək istəyən adam öncə bu qərarı açıb oxumalıdır".

**"Azəristilik" rəsmisi qərara aydınlıq gətirərək heç bir artımdan söhbət getmədiyini qeyd etdi:** "Qərarda deyilir ki, "Azəristilik" üçün suyun qiyməti əhali tarifi üzrə müəyyən edilsin. Su tarifi 35 qəpik, kanalizasiya üçün isə 15 qəpik, bunları toplayanda edir 50 qəpik. Burada heç bir artım yoxdur, sadəcə tullantı suları da su tarifinə daxil edilib və hər iki tarif toplanaraq vahid tarif yaradılıb".



"Azəristilik" rəsmisi bildirdi ki, bu ilin may ayına kimi, "Azəristiliktəchizat" qeyri-əhali qrupuna aid idi və bu qurum üçün suyun tarifi 1 manat, kanalizasiya tarifi isə 30 qəpik idi. Sonra Tarif Şurasının qərarı ilə "Azəristiliktəchizat" əhali qrupuna aid edildi və qiymətlər aşağı düşdü:

"Noyabrın 28-də isə həmin qərarda dəyişiklik ediblər, hüquqi baxımdan dəqiqləşdirmə aparıblar. Orada qeyd olunmuşdu ki, "Azəristilik" ASC-yə əhali tarifləri şamil edilsin, bu qərarda isə izah edir ki, əhali dedikdə nə başa düşülür, bu, kimlərə şamil edilir. Bu mənada "Azəristilik" üçün vahid tarif müəyyən ediblər. 1 kubmetr su üçün ödənilən 35 qəpiyi və 1 kubmetr tullantı suları üçün ödənilən 15 qəpiyi toplayıblar, 50 qəpik müəyyən ediblər. Əvvəl bunlar ayrı-ayrı ödənilirdi, indi vahid tariflə 50 qəpik ödənilir. Regionlarda da 30 qəpik üstəgəl 15 qəpik, 45 qəpik müəyyən edilib. Burada artım haradadır?"

Söhbət artımdan yox, may ayında verilmiş qərarın hüquqi baxımdan dəqiqləşdirilməsindən gedir. 2016-cı ilin may ayındakı qərara qədər bizim çün tariflər ümumilikdə 1 manat 30 qəpik idi, indi isə 50 qəpikdir. Bu əslində ucuzlaşmadır. Bu dəyişikliyin abonentlərə ümumiyyətlə aidiyyəti yoxdur. Biz su ilə kanalizasiyanı bir yerdə və ya ayrı-ayrı ödəyiriksə, bunun abonentlərə nə aidiyyəti var?".

**İstilik qiymətlərinin artmasına gəlincə, R.Əliyev bildirdi ki, "Azəristiliktəchizat"ın tariflərinin gələn il necə olacağı məlum deyil. Bu barədə bizim qurum tərəfindən Tarif Şurasına artım üçün heç bir təklif verilməyib.**

Məslə ilə bağlı "Azərsu" ASC-nın mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı ilə də əlaqə saxladıq. O bildirdi ki, tariflərdə artım yox, əksinə ucuzlaşma var: "Bu ilin may ayına qədər "Azəristilik" ASC qeyri əhali qrupuna daxil idi və onlara su 1 manata satılırdı, tullantı suları isə 30 qəpikdən hesablanırdı. Mayın 15-dən sonra bu qurum əhali qrupuna keçdi və su 35 qəpik oldu, tullantı suları isə 15 qəpik, elədi 50 qəpik, Əslində bizim "Azəristilik" ASC-ə satdığımız suyun tarifi iki dəfə aşağı düşdü. Yəni heç bir artımdan söhbət getmir, əksinə ucuzlaşıb. Sadəcə əvvəl su və kanalizasiya ayrı-ayrı göstərilirdi, indi onlar birləşdirilib, vahid tarif müəyyən edilib. Heç bir dəyişiklik yoxdur, jurnalistlər bunu kontekstdən çıxarıb yanlış təqdim ediblər".

**Məsələ ilə bağlı Tarif Şurası da açıqlama yayıb. Açıqlamada birmənalı şəkildə bildirilir ki, su təchizatı və tullantı sularının axıdılması tarifləri artırılmayıb. Açıqlamada həmçinin, kütləvi informasiya vasitələrinə diqqətli olmaq və araşdırılmamış məlumatları dərc etməkdən çəkinmək tövsiyə edilir.**

❑ **Nərgiz LİFTİYEVA**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 277 (6598) 13 dekabr 2016*


# Banqladeşdə Sultan Süleyman etirazı...




Banqladeşdə yerli aktyor və rejissorlar ölkədə izlənmə rekordları qıran "Sultan Süleyman" serialı ucbatından üsyan qaldırıb. Yerli seriallara izlənmə göstəriciləri baxımdan bir neçə dəfə üstün gələn bu serial banqladeşli aktyorların işsiz qalmasına səbəb olub. Bundan başqa, ölkədə boşanma faizi də sürətlə artıb. Ölkədə 2015-ci ildən bəri yayımlanan serialın əsl adı "Möhtəşəm yüzil" olsa da, Banqladeş televiziyasında onu "Sultan Süleyman" adı ilə, dublyaj edərək yayımlayırlar. Yayıma girəndən etibarən ciddi rəğbət görən serial ölkə telekanallarına xarici serialların yolunu açıb. Nəticədə isə öncə yerli serialların saatları dəyişdirildi, ardınca isə ümumən yayımdan çıxarılıb. AFP-nin xəbərinə görə, dizi sektorundakı nümayəndələr deyirlər ki, bu səbəbdən banqladeşli aktyorlar milyonlarla dollarlıq işlərini itiriblər və onlarla studiyanın fəaliyyəti də dayandırılıb.



# İt ayağını yaladı, 6 həftə komadan çıxa bilmədi

İngiltərədə Devid Money adlı bir adam itinin seliyindən ölümcül bir xəstəliyə tutulub və 6 həftə boyunca koma vəziyyətində qalıb. "Daily Mail"də yayımlanan xəbərə görə, it 51 yaşındakı adamı yalayınca heyvanın seliyində olan ölümcül bir bakteriya açıq bir yaradan içəriyə sızıb. Devid öncə qripə bənzərə simptomlar yaşamağa başlayıb. Ayaqlarında dözülməz ağrılar ortaya çıxıb. Dərisində batma və yanma hissi, üzündə qara ləkələr yaranmağa başlayınca həyat yoldaşı Culiya onu xəstəxanaya aparıb. İnfeksiya diaqnozu qoyulan adamın vəziyyəti getdikcə pisləşincə bədəni su yığmağa başlayıb. 51 yaşındakı adam ağrıdan bağırırmış. Yaraları bütün bədəninə yayılmağa davam edib. Barmaqları 3 dəfəyə qədər böyüyüncə infeksiyanın yayılmasının qarşısını almaq üçün onu iri sellofana büküblər. Həkimlər Devidi həyatda saxlamaq üçün 5 ay boyunca mücadilə edib. Eks hərbçi olan Devid nəhayətdə sağ qalıb, amma böyrəkləri iflas etdiyi üçün böyrək köçürülməsinə ehtiyac yaranıb. Bu səbəbdən də iki gündən bir dializə getmək məcburiyyətində qalıb. 7 yarış iti olan Devid "şikəst qaldım, çətinliklə yeriyirəm. İşimi itirdim və ölümdən qayıtdım. Bütün bunlara itlərimdən birinin səbəb olduğunu düşünmək belə istəmirəm" deyib.

# Sevgilin yoxdursa, maaş artımı səni sevindirmir

**İngiltərədə London School of Economicsin apardığı yeni bir araşdırma müəyyən edib ki, insanların ruh sağlamlığının yerində olması üçün onlara puldan daha çox sevgili vacibdir. Belə ki, sevgilisi olmayan adamın maaşı ikiqat artsa belə, bu, onun üzünü o qədər də güldürmür.**

200 min nəfərlə aparılan araşdırmaya görə, insanlara ən böyük zərbəni depressiya və qayğı vurur. Bir sevgi münasibətində olmaq isə xoşbəxtliyin artmasını təmin edən ən vacib faktordur. Xoşbəxtlik səviyyəsinin 1-dən 10-a qədər dərəcələndirildiyi araşdırmada bir insanın məvacibinin iki dəfə artırılması xoşbəxtliyini də 0.2 dərəcə artırı. Araşdırmaçılar müəyyənləşdiriblər ki, bu məqamda insanı düşündürən əsas məqam maaş artımından daha çox digərləri ilə müqayisədə vəzifə, status durumunun nə qədər artmasıdır.

**Yeni bir münasibətə başlamaq isə xoşbəxtliyi 0.6 dərəcə artırır. Partnyorundan ayrılıq və ya onun ölümü də neqativ olaraq eyni təsiri verir.**





# İntuisiya gerçəkdən də varmış

**Avstraliyanın Yeni Cənubi Uels Universitetinin tədqiqatçıları silsilə eksperimentlər zamanı intuisiya, ya altıncı hissin mövcudluğunu sübut ediblər.**

Tədqiqatda iki könüllü qrup kompüter ekranındakı sağ və sol istiqamətində hərəkət edən nöqtəyə baxıblar. Onlar öz intuisiyalarına əsaslanaraq nöqtənin son hərəkət trayektoriyasını qabaqcadan müəyyən etməli idi.

Bundan əlavə, monitorun sağ tərəfində yaxşı emosiyaları doğuran şəkil, sol tərəfində isə pis emosiya doğuran şəkillər parıldayıb.

Nəticədə məlum olub ki, yaxşı emosiyaya sahib olanlar öz intuisiya əsasında daha düzgün qərar verməyi bacarıb.




**QOÇ** - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər o qədər də önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**BUĞA** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin. Nahardan sonra isə yalnız istirahət və gəzintilərə meyl edin.

**ƏKİZLƏR** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 14-dən sonra iştirak etdiyiniz bütün görüşlər xeyrinizədir.

**XƏRÇƏNG** - Bəxtinizə fəaliyyət və yeni əlaqələr üçün ən uğurlu məqamlar düşəcək. Odur ki, mövcud potensialınızdan maksimum bəhrələnin. Müqəddəs yerləri ziyarət etmək yaxşı olardı.

**ŞİR** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Ən azından bu təqvim deyilən məsələlər üçün önəmli deyil. Gün ərzində dostlarınızla bir yerdə olun.

**QIZ** - Şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Qarşıda duran on gün ərzində görəcəyiniz işləri reallığa yaxınlaşdırmaq üçün müttəfiqlərinizlə əlaqələri dərinləşdirməlisiniz.

**TƏRƏZİ** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra səfərə çıxmağa dəyər.

**ƏQRƏB** - Gələcək perspektivlərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Belə ki, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Əzmkarlığınızı artırın.

**OXATAN** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**OĞLAQ** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Qazanmaq üçün çoxsaylı şanslarınız da mümkündür.

**SUTÖKƏN** - Məqsədlərinizi həyata keçirməkdə bəzi maneələrlə üzləşsəniz də, günün ümumi mənzərəsi istəyinizə uyğun tərzdə canlanacaq. Büdcənizdə artım da mümkündür, amma səhhətinizi qorumalısınız.

**BALIQLAR** - Başınızdakı yeni ideyaları reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Büdcənizi boş məsrəflərə xərcləməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Evlilik təklifini qəbul etmədiyi üçün öldürüldü



Hindistanda bir toyda rəqqasəni odlu silahla öldürüblər. Türkiyə mətbuatının xəbərinə görə, araşdırma nəticəsində rəqqasənin əslində evlilik təklifini qəbul etmədiyi adam tərəfindən qisas məqsədilə öldürüldüyü ortaya çıxıb. Amma ilk günlər hadisənin qəza nəticəsində baş verdiyi barədə xəbər yayılmışdı. Adam öncə rəqqasəyə onunla evlənməyi təklif edib. Rədd cavabı alandan sonra isə dostunun verdiyi odlu silahla ona atəş açıb. Hamilə olduğu ortaya çıxan rəqqasənin ölümünə səbəb olan şəxs isə həbs edilib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.